www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5 aprel 2017-ci il Çərşənbə № 69 (6683) Qiyməti 60 qəpik

Xəbər

## Azərbaycana qarşı yeni "Talış kartı"

yazısı səh.6-da

Gündəm

### Sankt-Peterburq terrorunu qırğız törədib - Orta Asiya terror fabriki kimi



Təhlükəsizlik eksperti Qırğızıstanın "terror məkanı"na çevrilməsinin səbəbini açıqladı; baş verənlər Putinə nəyin mesajıdır?

yazısı səh.13-də

### Deputatlar ÜAK-la bağlı problemə görə Moskvaya getmək istəyirlər

yazısı səh.7-də

### ANS-lə bağlı daha bir müəmma

yazısı səh.5-də

### Mehriban Əliyevanın erməni analarına müraciəti təqdir edilir

yazısı səh.7-də

### Bakı yenə "tıxaca düşdü"

yazısı səh.14-də

### Manatın sabit qalması - iqtidardakı iqtisadi komandanın möcüzəsi, yoxsa...

yazısı səh.12-də

### Balaxanıda 632 yaşlı məscid dağılmaq üzrədir

yazısı səh.14-də

### Avropanın Türkiyə nifrəti tarixçi deputat və xalq şairinin gözündə...

yazısı səh.4-də

### İqbal Ağazadədən müxalif birliklərə mesaj

yazısı səh.3-də

### Ərdoğan ikinci "Brexit" referendumu keçirə bilər

yazısı səh.4-də

### Mədət Quliyev Putinlə görüşə gedir

yazısı səh.2-də

# Ölkə ciddi dəyişiklik ərəfəsində

# VİTSE-PREZİDENTLƏR GƏLİR, ABUTALIBOVUN YERİ BOŞALIR-ADLAR

Son günlər rəsmi dəvətlərdə görünməyən Artur Rəsi-zadə özü ilə bərabər iki müavinini də istirahətə aparır; Yaqub Eyyubovun baş nazir olmaq şansı varmı? Bakı meri Nazirlər Kabinetinə gedir...




yazısı səh.5-də

## Bakıdan 3 paytaxta Qarabağ ittihamı: "Nə qədər gözləmək olar?.."

23 ildə konfliktin həllində dönüşə nail olmayan Minsk Qrupu həmsədrləri sərt tənqidə tuş gəldilər; rusiyalı tanınmış politoloq: "Nəyə görə pul alırsınız, yerinizi boşaldın"

yazısı səh.9-da



### Ter-Petrosyandan Qarabağla bağlı növbəti sensasion açıqlamalar

yazısı səh.8-də



*Tural Abbaslı:*

### "Bir mitinqlə müxalifət "qış yuxusundan ayıldı" demək olmaz"

yazısı səh.3-də


Valeriya Poroxova

### Quranı ruscaya çevirən məşhur rus alim "Yeni Müsavat"a danışdı

yazısı səh.10-da



# Prezident İlham Əliyevdən Putinə 25 illik təbriki

**Azərbaycan prezidenti İlham Əliyev Rusiya prezidenti Vladimir Putinə məktub ünvanlayıb. Prezidentin rəsmi saytının məlmatına görə, məktubda deyilir: "Hörmətli Vladimir Vladimiroviç. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlərin yaradılmasının 25-ci ildönümü ilə əlaqədar səmimi təbriklərimi qəbul edin.**

Budəfəki yubiley ölkələrimizin keçdiyi yola nəzər salmaq, görülmüş işlərə yekun vurmaq və gələcəklə bağlı planlar qurmaq üçün yaxşı fürsətdir. Biz tarixi baxımdan qısa zaman kəsiyində həm ortaq keçmişimizin müsbət nəticələrini qoruyub saxlamağa və çoxaltmağa, həm də qarşılıqlı fəaliyyətin keyfiyyətcə yeni səviyyəsinə çatmağa nail olmuşuq. Bu gün dövlətlərimizin münasibətləri bir-birimizin maraqlarına qarşılıqlı hörmətə, bərabərhüquqluluğa, iki ölkənin xalqları arasında çoxəsrlik dostluq və mehriban qonşuluq ənənələrinə əsaslanan strateji tərəfdaşlıq xarakteri daşıyır.

Bütün səviyyələrdə etimada əsaslanan əlaqələrin inkişafını və siyasi, parlamentlərarası və idarələrarası əlaqələrin intensivləşməsini, ən müxtəlif sahələrdə əməkdaşlığın ardıcıl olaraq dərinləşməsini böyük məmnuniyyətlə qeyd etmək istəyirəm. Dostluq və mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsində humanitar əlaqələr xüsusi rol oynayır. Azərbaycanda rus dilinə və rus mədəniyyətinə olduqca qayğıkeş münasibət bəslənilir, ortaq mədəni və tarixi irs qorunub saxlanılır.

Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla tənzimlənməsi üçün Rusiya Federasiyasının səylərini yüksək qiymətləndiririk.

Əminəm ki, bizim dövlətlərarası münasibətlərimiz, çoxşaxəli Azərbaycan-Rusiya qarşılıqlı əlaqələri bundan sonra da xalqlarımızın mənafeyinə, regionda sülhə, sabitliyə və tərəqqiyə xidmət edəcək.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Rusiya xalqına sülh və firavanlıq arzu edirəm".




# "Bank VTB" sədrini dəyişdi

**Yevgeni Kirin "Bank VTB (Azərbaycan)" ASC-nin İdarə Heyətinin sədri təyin olunub. Bankdan "APA-Economics"ə verilən məlumata görə, o, Yuri Yakovlevi əvəzləyib.**

Y.Kirin 15 ildən çox müddətdir bank sahəsində çalışır. Bu dövr ərzində o, müxtəlif maliyyə təşkilatlarında rəhbər vəzifələrdə işləyib. 2010-cu ildən "VTB Qrup"dadır, Azərbaycana təyinatından öncə bank VTB-nin Kursk şöbəsinə rəhbərlik edib.

O, 1979-cu ildə Orlov vilayətində anadan olub, "Maliyyə və kredit" ixtisası üzrə Orlov Dövlət Texniki Universitetini bitirib. "Maliyyə, pul dövriyyəsi və kredit" ixtisası üzrə iqtisad elmləri namizədidir.

Strateji Təşəbbüslər Agentliyi və bir sıra dövlət orqanlarının ictimai şuraları çərçivəsində ictimai fəaliyyətlə məşğuldur.

# Nazir mərkəz rəhbərini işdən çıxarıb

**Əmək və əhalinin sosial müdafiə naziri Səlim Müslümov daha bir kadr dəyişikliyi edib. Mia.az-ın məlumatına görə, nazir Sumqayıt Şəhər Məşğulluq Mərkəzinin rəhbəri İlham Hüseynovu işdən azad edib. İ.Hüseynov nazirin əmri ilə ƏƏSMN yanında DSMF-nin Sumqayıt şəhər şöbəsinin sədr müavini vəzifəsinə təyin olunub.**

Məlumat üçün bildirək ki, son günlər İlham Hüseynovun adı rüşvət qalmaqalında hallanırdı. Onun Sumqayıt Şəhər Məşğulluq Mərkəzində yeyintilərə yol verməsi ilə bağlı bir sıra media qurumlarında məlumatlar da yayılmışdı.

# Mədət Quliyev Putinlə görüşə gedir

**Aprelin 5-də Rusiya prezidenti Vladimir Putin MDB ölkələrinin xüsusi xidmət orqanlarının rəhbərlərinin XIV iclasında iştirak edən nümayəndə heyətlərinin rəhbərləri ilə Kremldə görüşəcək.**



Virtualaz.org "İnterfaks"a istinadən xəbər verir ki, Kremlin mətbuat xidməti MDB ölkələrinin kəşfiyyat cameələri arasında fəaliyyətin koordinasiyasının təkmilləşdirilməsinin beynəlxalq terror təhlükəsinin artdığı bir vaxtda mühüm əhəmiyyət daşıdığını bildirir.

MDB xüsusi xidmət rəhbərlərinin müşavirəsi dünən aprelin 4-də Moskvada işə başlayıb. Müşavirədən sonra Rusiya Xarici Kəşfiyyat Xidmətinin press-bürosunun rəhbəri Sergey İvanov bildirib ki, MDB üzvü olan ölkələrin xüsusi xidmət orqanlarının rəhbərləri hər şeydən əvvəl terrorçuluqla mübarizədə əməkdaşlığı davam etdirməyə razılaşıblar.

"Yekun memorandumunda iştiraçılar çoxtərəfli əməkdaşlığı davam etdirmək niyyətini təsdiqləyiblər. MDB ölkələrinin həyati maraqlarına toxunan əsas təhdidlər qismində beynəlxalq terrorçuluq, dini və siyasi ekstremizm göstərilib"-İvanov deyib.

Moskvada keçirilən iclasda Azərbaycanın Dövlət Təhlükəsizlik Xidmətinin rəhbəri, general-leytenant Mədət Quliyev, Azərbaycanın Xarici Kəşfiyyat Xidmətinin rəisi, general-mayor Sultanov, Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin rəhbəri, general Kutoyan, Belarus KQB-sinin sədri, general Vakulçik, Qazaxıstan Xarici Kəşfiyyat Xidmətinin direktoru, general Bayjanov, Özbəkistan Milli Təhlükəsizlik Xidmətinin rəhbəri İnoyatov və digərləri iştirak ediblər.




# "PAŞA Bank"ın Türkiyədəki törəməsinin rəhbəri işdən çıxıb

**"PAŞA Yatırım Bankası A.Ş."-nin ("PAŞA Bank" ASC-nin Türkiyədəki törəməsi - red.) rəhbərliyində dəyişiklik baş verib.**

"APA-Economics" xəbər verir ki, törəmə bankın İdarə Heyətinin martın 31-də keçirilən ümumi iclasında İdarə Heyətinin sədri Ağa Əli Kamalov vəzifəsindən ayrılıb. Digər dəyişikliyə əsasən, İdarə Heyətinin müstəqil üzvü Süreyya Serdengeçti də vəzifəsi ilə vidalaşmalı olub.

Qəbul olunan qərara əsasən, Fərid Məmmədov İdarə Heyətinin üzvü, Meriç Uluşahin müstəqil üzvü seçilib.

İdarə Heyətinə kimin rəhbərlik etdiyi hələlik məlum deyil.

Törəmə bankın saytında Ağa Əli Kamalov hələ də İdarə Heyətinin sədri kimi göstərilir.

# Meriya Milli Şuranın aksiyasına bir şərtlə icazə verdi

**Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) Milli Şuranın aprelin 9-da mitinq keçirməsinə razılıq verməyib. APA-nın məlumatına görə, BŞİH aksiyanın aprelin 8-də keçirilməsini təklif edib.**



# Azərbaycanın rus icması ÜAK-ın ləğv olunmasına qarşı çıxdı

**Azərbaycanın rus icması Rusiyanın ən iri ictimai təşkilatlarından biri Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) ləğv olunması ilə bağlı bəzi dövlət qurumlarının qərarı ilə bağlı kəskin etirazını bildirir.**

Modern.az-ın məlumatına görə, bu barədə icmanın bəyanatında deyilir. İcma hesab edir ki, bu siyasi təxribatın arxasında Rusiya və Azərbaycan, eləcə də bu ölkələrin xalqları arasında münasibətlərə xələl gətirməyə çalışan qüvvələr dayanır. Ümumrusiya Azərbaycanlıları Konqresi öz fəaliyyətini həmişə Rusiya qanunvericiliyi çərçivəsində həyata keçirib. İctimaİ-siyasi stabillik, Rusiyanın siyasi quruluşuna loyallıq hər zaman ÜAK-ın fəaliyyətinin dəyişməz prioriteti olub.

Azərbaycanın rus icmasını ÜAK-la möhkəm iş münasibətləri, mədəni və mənəvi əlaqələrin inkişafı üzrə birgə iş bağlayır və bu ictimai birliyin ləğv olunması Azərbaycanda yaşayan rusları narahat etməyə bilməz. "Azərbaycanın rus icması" ictimai təşkilatı respublikadakı fəaliyyətində Azərbaycanın ali rəhbərliyinin, hökumət və dövlət orqanlarının hərtərəfli diqqəti və dəstəyini hiss edir.

Azərbaycanda rus dili və rus mədəniyyətinin inkişafı və qorunması hərtərəfli dəstək görür, ölkədə rus dilli tədris mövcud olan 350 məktəb fəaliyyət göstərir. Bütün ali təhsil müəssisələrində rus dilli tədris mövcud olan fakültələr var və burada 16 000-dən çox tələbə təhsil alır. Ölkədə rus pravoslav kilsəsinə dövlət dəstəyi göstərilir.

"Azərbaycanın rus icması" ictimai təşkilatının fəaliyyətinə Azərbaycan tərəfindən fəal dəstək göstərilməsi fonunda Rusiyanın ən iri təşkilatı, nüfuzlu və geniş azərbaycanlı diasporu olan Ümumrusiya Azərbaycanlıları Konqresinə Rusiya dövlət strukturlarının bu cür münasibəti təəccüblü görünür.

Azərbaycanın rus icması ÜAK-ın ləğv edilməsini bəzi rusiyalı dövlət məmurlarının ciddi siyasi və strateji səhvi hesab edir və ümid edir ki, Rusiya hökuməti bu təşkilatın qorunması üçün lazım olan bütün tədbirləri görəcək.



# Zakir Həsənov Səudiyyə kralı ilə danışıqlar aparmağa getdi

**Aprelin 4-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfərə yola düşüb.**

Müdafiə Nazirliyinin mətbuat xidməti bildirir ki, səfər çərçivəsində Z.Həsənov İki MüqəddəsƏrəbistanı Krallığı Vəliəhdinin varisi, baş nazirin müavini, müdafiə naziri şahzadə Məhəmməd bin Salman bin Əbdüləziz Al Səud və digər dövlət rəsmiləri ilə ikitərəfli görüşlər keçirəcək.Görüşlər zamanı iki ölkə arasında hərbi sahədə əməkdaşlığın inkişaf perspektivləri müzakirə ediləcək və regional təhlükəsizlik məsələlərinə dair fikir mübadiləsi aparılacaq.

# Türkiyədə "canlı bomba" saxlanıldı

**Türkiyədə üzərində 1,5 kq partlayıcı, 2 ədəd əl qumbarası gəzdirən çeçen tutulub.**

"Report" xəbər verir ki, bu məlumatı Türkiyə Silahlı Qüvvələri yayıb.

Məlumata görə, ad-soyadı açıqlanmayan çeçen Türkiyə ərazisinə Suriyadan keçib.

Onunla birlikdə Suriyadan Türkiyə ərazisinə keçən 16 nəfər saxlanılıb.

# Bəşər Əsədin İspaniyadakı 691 milyon dollarlıq mülkünə həbs qoyuldu

**Suriya diktatoru Bəşər Əsəd və ailəsinin İspaniyadakı mülkünə həbs qoyulub.**

"Reuters" verir ki, bu barədə İspaniya Ali Məhkəməsi qərar çıxarıb. Məlumata görə, məhkəmə Əsəd və ailəsi haqqında "çirkli pullar"la bağlı ittiham irəli sürüb (Report).

Məlumata görə, Əsəd və ailəsinin İspaniyada 691 milyon dollar dəyərində daşınmaz əmlakı var.

# Türkiyə ordusunun 3 əsgəri şəhid olub

**Türkiyədə antiterror əməliyyatları davam edir. APA-nın "Hürriyet" qəzetinə istinadən verdiyi məlumata görə, Şırnak vilayətinin Qabar dağı bölgəsində PKK terrorçularına qarşı keçirilən əməliyyat zamanı terrorçuların ərazidə öncədən quraşdırdıqları partlayıcı qurğu işə salınıb.**

Nəticədə 3 əsgər şəhid olub, 5 əsgər yaralanıb. Əməliyyat zamanı 5 terrorçu öldürülüb.

**Milli Şuranın 9 aprelə təyin etdiyi mitinqə bəzi siyasi partiyalar münasibət bildiriblər. Belə ki, KXCP, AĞ Partiya, Azadlıq, ADP, VİP, BAP, AXP toplantı keçirərək, 9 aprel mitinqinə mövqelərini bəyan ediblər. Partiyaların birgə bəyanatında bildirilib ki, onlar 9 aprel mitinqinin tələb və şüarlarını müdafiə edirlər: "Üzv və tərəfdarlarımızın mitinqdə iştirakını məqsədəuyğun hesab edirik".**

# 9 aprel mitinqi müxalifəti "səngər"dən çıxaracaq?

Milli Şura tərəfdarları isə sosial şəbəkələrdə mitinqin təbliğatını aparıb, insanları meydanlara çağırırlar. Maraqlı məqam ondan ibarətdir ki, yuxarıdakı bəyanatda adıçəkilən partiyalardan bəzilərinin liderləri bildiriblər ki, onlar mitinqdə iştirak etməyəcəklər. Eyni zamanda ekspertlər də hesab edirlər ki, mitinqin təşkil olunması heç də müxalifətin "səngər"dən çıxması anlamına gəlmir.

**ADP sədri Sərdar Cəlaloğlu "Yeni Müsavat"a bildirib ki, mitinqi çox normal qəbul edir:**

"Mitinqi normal və vacib hesab edirəm. Çünki xeyli sayda siyasi problemlər yığılıb qalıb. Ölkədə böhran yaranıb, insan hüquqları pozulur, siyasi məhbus problemləri var. Belə bir şəraitdə xalqın hakimiyyətə direnişi, öz iradəsini bildirməsi vacibdir. Bunun da yollarından biri mitinqlərin keçirilməsidir. Ona görə də mitinqlər həm konstitusiyaya görə vətəndaşların hüquqlarıdır, həm də mövcud vəziyyət belə bir mitinqlərin keçirilməsini vacib hesab edir. Şəxsən mən özüm mitinqdə iştirak etməyəcəm.



**Sərdar Cəlaloğlu:** "Mitinqdə şəxsən iştirak etməsəm də, üzvlərimizin iştirakına mane ola bilmərik"

Ancaq partiyamızın üzvlərinin bu cür aksiyalarda iştirakının qarşısını almağa ixtiyarımız yoxdur. Nə qanun, nə də konstitusiya buna icazə vermir".

**AG Partiyanın sədri Tural Abbaslı hesab edir ki, bu mitinq də, sadəcə olaraq, cari işlərdən biridir:**

"Heç bir hərəkət olmamasından, hansısa addımın atılması yaxşıdır. Ancaq məqsəd nəyinsə olması deyil, məqsəd



**Tural Abbaslı:** "Bir mitinqlə müxalifət "qış yuxusundan ayıldı" söyləmək olmaz"

hakimiyyətə real təsir edə biləcək mitinqlərin təşkili, bu mitinqlərə xalqın cəlb olunmasını təmin etməkdir. Düşünürəm ki, təyin olunan mitinq bu funksiyanı icra edib, xalq kütlələrini öz ətrafına toplaya bilməyəcək. Yenə də bəlli bir kəsim narazı elektorat mitinqdə iştirak edəcək. Bu isə müxalifət arasında lider yarışında kimisə önə çıxarıb, kimisə ikinci plana atacaq. Ancaq inanmıram ki, bu cür təkbaşına, ümummüxalifət mitinqi olmadan hakimiyyəti silkələyən aksiya təşkil olunsun. Bu mitinqlə müxalifət "qış yuxusundan ayıldı" söyləmək olmaz. Çünki bundan öncə də mitinqlər olmuşdu. Məncə, müxalifət özünü, ümumiyyətlə, proseslərdən kənarda qoyub. Özünü xalqdan ayırmaqla onsuz da müxalifət öz statusunu itirib. Nəticədə isə hakimiyyət təkbaşına oyunçudur. Bu gün biz əgər real nəticə əldə etmək istəyiriksə, xalqı öz yanımıza çəkməliyik. İnanmıram ki, bu cür bir mitinqlə müxalifətdə canlanma olsun. Bunun üçün siyasi situasiya yetişməli, canlanma olmalıdır. Yoxdursa, bunu yaratmaq lazımdır. Yaratmaq üçün isə heç bir addım atılmır. Yəni mən bu mitinqi cari işlərdən biri kimi qiymətləndirirəm. Qeyri-adi gözləntim yoxdur. Bir çox narazı kütlələr var ki, onlar müxalifətdən birlik gözləyirlər. Hər kəsin iştirakı təmin olunsaydı, o zaman mitinqdən nə isə gözləmək olardı".

**KXCP sədri Mirmahmud Mirəlioğlu isə modern.az saytına açıqlamasında bildirib ki, mitinqdə iştirak etməyəcək.**

❑ **Əli RAİS**

# Həbsdəki REAL sədrinin səhhəti tam düzəlməyib

## Vəfa Məmmədova: "Ağrıları tam keçməsə də, heç olmasa bir qədər hərəkət edə bilir"

**Novruz bayramı əfvində 4 siyasi məhbus azadlığa buraxılsa da, əfv olunacağı gözlənilən REAL sədri İlqar Məmmədov bu dəfə də həbsdə qaldı. Son əfvdən sonra sabiq səhiyyə naziri Əli İnsanov, AXCP-dən Asif Yusifli, Məmməd İbrahim, Seymur Həzi, vəkil Əliabbas Rüstəmov və NİDA-çı İlkin Rüstəmzadə kimi siyasilər də əfv edilmədilər.**

Daha öncə də xəbər verdiyimiz kimi, həbsdə olan REAL sədri İlqar Məmmədovun səhhətində ciddi problemlər yaranıb. Onun hazırkı durumunun nə yerdə olması ilə bağlı "Yeni Müsavat"a danışan xanımı Vəfa Məmmədova bildirib ki, İ. Məmmədovun vəziyyəti bir qədər yaxşılaşıb: "Ağrıları tam keçməsə də, heç olmasa bir qədər hərəkət edə bilir. Onunla bu həftə görüşməsəm də telefonla danışmışam. Bildirdi ki,



İlqar Məmmədov

bir qədər vəziyyəti düzəlib. Aprelin 4-də İlqar bəyin yanına Beynəlxalq Qırmızı Xaç Cəmiyyətindən getməli idilər. Hələ ki bu barədə xəbərim yoxdur. Onların özlərinin həkimləri var, İlqar Məmmədovu müayinə edəcəklər. Düzdür, həkim sırf olaraq bel həkimi deyil. Ancaq hər halda, həkimdir də, gedib yoxlayar, müəyyən köməklik edər".

**İlqar Məmmədovun vəkili Cavad Cavadov "Amerikanın səsi"nə bildirib ki, martın 29-da 2 saylı cəzaçəkmə müəssisəsində İlqar Məmmədovla görüşüb.**

"İlqar Məmmədovun bel ağrıları nisbətən sakitləşsə də yenə də qalır. O mənimlə görüşə də gec gəldi. Çünki hərəkət etməkdə çətinlik çəkir", deyə vəkil bildirib.

Martın 24-də İlqar Məmmədovu Ədliyyə Nazirliyinin Tibb Xidmətinin nümayəndəsi Şamil Aydəmirov və bir tibb işçisi müayinə edib və ağrıların kəskin osteoxondrozdan yarandığını bildiriblər.

Qeyd edək ki, REAL Hərəkatının rəhbəri İlqar Məmmədov 2013-cü ilin yanvarında İsmayıllıda kütləvi iğtişaşların təşkilində ittiham olunaraq 7 il azadlıqdan məhrum edilib.

Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) 2014-cü ilin mayında İ.Məmmədovun azadlıq hüququ və təqsirsizlik prezumpsiyasının pozulmasını tanıyıb. Avropa İnsan Hüquqları Məhkəməsinin qərarından sonra onun işi Şəki Apelyasiya Məhkəməsinə göndərilib. 2016-cı il aprelin 29-da Şəki Apelyasiya Məhkəməsi birinci instansiya məhkəməsinin hökmünü qüvvədə saxlayıb. Bundan sonra müdafiə tərəfi Şəki Apelyasiya Məhkəməsinin qərarından Ali Məhkəməyə kasasiya şikayəti verib. Ali Məhkəmə isə noyabrın 18-də kasasiya şikayətini təmin etməyib. Avropa Şurası Nazirlər Komitəsi 2016-cı il 20 sentyabr iclasında İ.Məmmədovun azadlığa buraxılmaması ilə Avropa İnsan Hüquq və Azadlıqları Konvensiyasının pozulduğunu bəyan edib.

❑ **Əli RAİS**

# İqbal Ağazadədən müxalif birliklərə mesaj

## "Ona görə həmin birliklərdə təmsil olunmuruq ki..."

**Adətən aktivliyi ilə seçilən partiyalardan və siyasi liderlərdən olan Ümid Partiyası və onun sədri İqbal Ağazadənin əvvəlki dinamikliyi bir qədər səngimiş kimi görünməkdədir. Ümid Partiyasının hazırda fəaliyyətinin nədən ibarət olduğu və digər məsələlərlə bağlı İqbal Ağazadəyə suallar ünvanladıq.**



**İqbal Ağazadə** bildirdi ki, 2018-ci ilin birinci yarısında partiyanın qurultayını keçirmək nəzərdə tutulub. Ona görə də indi partiyanın strukturları qurultayla bağlı konfranslara hazırlaşır. Bununla bağlı partiyanın mərkəzi qərargahında mütəmadi müşavirələr keçirilir. O cümlədən rayonlara səfərlər olur. Partiyaya yeni üzvlərin cəlb olunması prosesi də gedir.

Partiyanın əvvəlki aktivliyinin azalmasına gəldikdə, İ.Ağazadə qeyd etdi ki, ölkədə ictimai-siyasi proseslər bir qədər süst olduğundan buna görə də ümumən müxalifətin səsi möhkəm çıxmır. Proseslər bir əvvəl devalvasiyanın ilk dönəmindəki kimi dinamik deyil.

**Digər müxalif qüvvələrlə Ümid Partiyasının əlaqələrinin, əməkdaşlığının nə yerdə olduğuna gəlincə, İqbal Ağazadə açıqlama verdi ki, bir sıra partiyalarla bu və ya digər şəkildə əlaqələri olur, amma Ümid Partiyası heç bir birlikdə deyil:** "O birliklərin də hesab etmirəm ki, bugünkü gündə cəmiyyətin ümumi əhval-ruhiyyəsinə də, baş verən proseslərə də təsir imkanları geniş olsun. Buna görə də həmin birliklərdə təmsil olunmuruq".

**"Təkbaşına fəaliyyət nə zamana qədər davam edəcək" sualına isə Ümid sədri belə cavab verdi:** "Ümid Partiyası hakimiyyətə gələnədək davam edə bilər. Eyni zamanda qarşıdakı dönəmlərdə ictimai-siyasi vəziyyətə baxacağıq və situasiyaya uyğun qərar vermək mümkündür. Hələlik hansısa partiya və birliklərlə bir yerdə təmsilçiliklə bağlı qəti qərarımız yoxdur".

**"Ümid Partiyasının yürütdüyü siyasi xətti, strategiya və taktikanı daha çox ölkədəki hansı partiyaların siyasi xəttinə və taktikasına yaxın hesab etmək olar" sualını isə İ.Ağazadə belə cavablandırdı:** "Azərbaycanda vəziyyət belədir ki, ənənəvi partiya bölgüləri, strategiyası yoxdur. Azərbaycanda hamı baş verən problemlərin, hadisələrin arxasınca qaçmağa çalışır. Bundan istifadə edib seçiciyə səslənmək istəyir. Çünki KİV-lə və digər yollarla seçiciyə bilavasitə müraciət ünvanlamaq və seçici ilə görüş imkanları məhduddur. Ona görə də hamı cari hadisələrdən yapışır, hamı eyni məsələləri deyir, bəzən hətta eyni cür ifadə edir. Ona görə də bu gün oxşarlıqlar və ya fərqliliklər axtarmağa dəyməz".

**İqbal Ağazadə bugünlərdə aktuallaşan partiyaların MSK-ya illik maliyyə hesabatı verməsi məsələsindən də danışdı və bildirdi ki, Ümid Partiyası hesabatı təqdim edib. Açıqlanan siyahıda Ümid Partiyasının adının nə üçün olmadığına isə cavabdeh qurum olan MSK aydınlıq gətirməlidir:** "Mən niyə belə olduğu ilə maraqlanmıram. Onlar maraqlanmalıdırlar ki, hesabat təqdim edən partiyaların adları nə üçün siyahıda yer almayıb. Biz hesabatımızı vermişik və kifayət qədər ciddi, professional hesabatdır".

**"Keçmiş müttəfiqiniz Sərdar Cəlaloğlu bildirib ki, MSK-nın partiyalardan maliyyə hesabatı tələb etməsi məntiqsizlikdir, eyni zamanda dövlət büdcəsindən maliyyələşməyən partiyalardan maliyyə hesabatı tələb edilməsi düzgün deyil. Sizin bu məsələyə münasibətiniz necədir" sualına isə İqbal Ağazadə belə cavab verdi:** "Hüquqi şəxsin hər biri haradan maliyyələşməyindən asılı olmayaraq hesabat verməlidir. Hüquqi şəxs status alıbsa, onun maliyyə hesabatı da olmalıdır, boş olsa belə xətt çəkib hesabatı təhvil verməlidir. Orada nə yazılması önəmli deyil, önəmlisi sənəd təhvil verilməlidir və bu, hüququn prosedurudur. Amma qeydiyyatdan keçmiş siyasi partiyaların maliyyə hesabatı verdiyi qurum Mərkəzi Seçki Komissiyası olmamalıdır. Mən bunu parlamentdə də dəfələrlə demişəm ki, MSK hansı əsasla siyasi partiyalardan illik maliyyə hesabatı götürməlidir?! Maliyyə qurumudur, vergi qurumudur MSK?! MSK-nın siyasi partiyalardan maliyyə hesabatı götürməyə ixtiyarı yoxdur, ona belə bir səlahiyyət verilməməlidir".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 69 (6683) 5 aprel 2017

# Ərdoğan ikinci "Brexit" referendumu keçirə bilər

## Politoloqlar Gürcüstanı Avropa Birliyi üçün Türkiyədən önəmli edən səbəblərdən danışdı

**Qonşu Gürcüstanın Avropa Birliyinə üzvlük istiqamətində cəhdləri nəticə verdi, gürcülər artıq bu istiqamətdə hədəfə çatmaq üzrədir. Bu ölkənin Xarici İşlər Nazirliyi Avropa Birliyi (AB) ilə vizasız gediş-gəlişin qüvvəyə minməsini önəmli hadisə adlandıraraq bunun adıçəkilən quruma üzvlük istiqamətində atılan ciddi addım hesab edildiyini bildirib.**

Qeyd edək ki, qardaş Türkiyənin 50 ildir can atdığı AB üzvlüyünə Gürcüstanın qısa müddət ərzində daha çox yaxınlaşması da cəmiyyətdə sual doğurur. Görəsən, Cənubi Qafqazın ən kasıb ölkələrindən biri olan, heç bir qeyri-adi iqtisadi gücə və təbii sərvətə malik olmayan Gürcüstan niyə Avropa Birliyi üçün Türkiyədən daha önəmlidir?

**"Yeni Müsavat"ın sualını cavablandıran politoloq Qabil Hüseynli bildirdi ki, Gürcüstan bu istiqamətdə çox ciddi tədbirlər həyata keçirir və artıq bunun ilkin bəhrələrini də görür:** "Gürcüstan həm Avropa Birliyinin bəzi strukturları ilə, həmçinin NATO-nun strukturları ilə sistemli şəkildə iş aparır. Gürcüstan Avropa Birliyi ilə əvvəlcə yaxın qonşuluq münasibəti qurub, 3 il bundan əvvəl isə AB ilə assosiativ üzvlük haqqında müqavilə bağlayıb. Bu, Gürcüstanı AB-yə doğru aparan yoldur. Gürcüstan həmçinin NATO ilə də əməkdaşlıq edir. Bu səbəbdən də Gürcüstan Cənubi Qafqazda ordusunda NATO standartlarına keçən ilk ölkədir. Eyni zamanda Sülh Naminə Tərəfdaşlıq Proqramına qoşulan ilk ölkədir. Gürcüstan ordusunun NATO standartları üzrə qurulması proqramını qəbul edib və öz ölkəsində NATO-nun tədris mərkəzinin açılmasına icazə verib. Bütün bunlar Gürcüstanı Qərb strukturları ilə xeyli yaxınlaşdırıb və bu yaxınlarda Gürcüstan Avropa Birliyində daha mühüm yerə sahib olub. Gürcüstan vətəndaşları Avropa Birliyinə vizasız gediş-gəliş imtiyazı əldə edib. Bu səbəblərdən Avropa Birliyi ilə Gürcüstan arasında münasibətlər inkişaf yolundadır. Güman edirəm ki, işlər bu templə davam edərsə, çox da uzaq olmayan bir zamanda Gürcüstan Avropa Birliyinə namizəd kimi qəbul edilə bilər".

**Politoloqun sözlərinə görə, Avropa Birliyinə daxil olmaq istəyən ölkələr bəlli bir öhdəlikləri yerinə yetirməlidir və Türkiyə bu mənada bəzi səhvlərə yol verib:** "Bu öhdəliklər demokratiya və insan haqları ilə bağlı olan məsələlərdir. Türkiyə üçün də bununla bağlı müəyyən öhdəliklər cızılıb, hətta ölkənin Avropa Birliyinə inteqrasiyasını təmin edən yol xəritəsi də müəyyən edilib. Türkiyə bunun üçün qoyulan öhdəliklərin bəzilərini yerinə yetirib, bəzilərinin yerinə yetirilməsində isə müəyyən qədər ləngidi. Türkiyədə son illər baş verən bir sıra hadisələr də bu prosesə təsir etdi. Qardaş ölkədə 15 iyunda baş verən çevriliş cəhdi və cəhddə Qərb ölkələrinin qınağa çəkilməsi, ardınca referendum məsələsində türkiyəli siyasilərin Avropa ölkələrinə buraxılmaması məsələsi, Avropa Birliyi ilə Türkiyə arasında ciddi problemlər yaratdı. Beləliklə də Türkiyənin Avropa Birliyi macərası hələ ki dayandırılıb. Bu məsələyə yenidən qayıdılmasının perspektivləri isə yaxın vaxtlar üçün real görünmür".



**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə bildirdi ki, Türkiyənin başı üzərindən Baltikyanı ölkələr, Şərqi Avropa ölkələri , bəzi keçmiş SSRİ ölkələri də Avropa Birliyinə üzv olublar, ancaq Türkiyəni üzvlüyə qəbul etmirlər:** "İndi isə Gürcüstan bu məsələdə Türkiyəni qabaqlamaq üzrədir. Fərq ondan ibarətdir ki, Avropa İttifaqı Türkiyəni öz qurumunda üzv görmək istəmir. Çünki Türkiyə böyük ölkədir, güclü ölkədir. Düşünürlər ki, Türkiyə AB-də yer alsa ciddi söz sahibinə çevriləcək. İndi Avropa İttifaqının iki aparıcı dövləti var: Fransa və Almaniya. Türkiyə AB-yə üzv olsa, liderlər sırasına qoşulacaq və üçlük yaranacaq. Ona görə də Fransa və Almaniya öz liderliyini üçüncü bir ölkə ilə bölüşmək istəmirlər. Gürcüstan kiçik bir ölkədir, heç bir iddiası yoxdur. Ona görə də onun Avropa Birliyinə yaxınlaşmasında lider ölkələr üçün heç bir problem yoxdur. Bu səbəbdən Gürcüstanla viza məsələsini də həll etdilər, islahatlar məsələsini də sürətləndirdilər. Problemin bir tərəfi də odur ki, artıq Türkiyə özü də Avropa ittifaqına üzv olmaq istəmir. Mən ehtimal edirəm ki, 16 aprel referendumundan sonra Ərdoğan ikinci bir "Brexit" referendumu da keçirə bilər ki, Türkiyə vətəndaşları Avropa İttifaqı ilə danışıqların davam etdirilməsini istəyir , ya yox. Hiss olunur ki, Ərdoğan da bu prosesdən bezib və Avropa ittifaqına üzvlük məsələsini arxa plana atıb. Ərdoğan hakimiyyətə gələndə Brüssellə çox sıx əməkdaşlıq var idi. Brüssel Ərdoğanın fəaliyyətini yüksək qiymətləndirirdi, Ərdoğan Aİ-nin toplantılarına qatılırdı. İndi isə tərs bir durum yaranıb. Hər iki tərəf bir-birini ittiham edir, Ərdoğan Qərb ölkələrini faşist adlandırır. Ona görə də Türkiyənin Avropa Birliyinə inteqrasiya perspektivi mənim üçün dumanlıdır. Amma Gürcüstan bu istiqamətdə ciddi şəkildə irəliləyir. Bir müddət sonra bu ölkə də AB üzvü olacaq və Türkiyə hələ də kənarda qalacaq".

❑ **Nərgiz LİFTİYEVA**

# Avropanın Türkiyə qərəzi tarixçi deputat və xalq şairinin gözündə...

**Tarix boyu olduğu kimi, indinin özündə də Avropa ölkələrinin Türkiyəyə qarşı məkrli siyasət yürütdüklərinin şahidi olmaqdayıq. Qardaş ölkəni sıradan çıxarmaq üçün dəridən-qabıqdan çıxırlar. Hətta bir-biriləri ilə münasibətləri soyuq olan dövlətlər görmüşük ki, məsələ Türkiyə olduğu zaman birlikdə addım atıblar.**

Bir müsəlman ölkəsinə qarşı bu qədər kin-küdurətin, nifrətin yüksək olması ilə bağlı ən müxtəlif fikirlər var. Əksəriyyət belə düşünür ki, Qərb dünyasının anti-Türkiyə siyasətlərinin əsas səbəbi indiki Türkiyə Cümhuriyyətinin varisi olduğu Osmanlı İmperatorluğunun vaxtilə dünyanın böyük bir hissəsini əsarət altına almasıdır. Xristian dünyasının ikinci bir Osmanlı İmperiyası gücündə türk dövlətinin mövcudluğundan qorxduqları, qıcıqlandıqları üçün bu cür siyasət apardıqları vurğulanır. Təkcə son bir ayda Avropanın qabaqcıl Almaniya, Hollandiya kimi ölkələrinin Türkiyədəki referendumu bəhanə edərək, qardaş ölkə ilə bağlı atdıqları addımları xatırlamaq kifayət edər.

**Tarixçi professor, deputat Musa Qasımlı deyilənlərlə razılaşmır. O hesab edir ki, Türkiyəyə qarşı nifrət hissinin Avropa ölkələrində bütün əhalini əhatə etməsinə dair fikirlər əslində düzgün deyil:** "Məlum nifrəti müəyyən qüvvələr, dairələr məqsədyönlü şəkildə qızışdırırlar. Çünki onlar Türkiyənin güclü olmasında maraqlı deyillər. Belə antitürk mövqenin tutulmasının da tarixi kökləri və müasir siyasi səbəbləri var. Uzun əsrlər boyu Osmanlı Türkiyəsi üç qitədə hakimiyyətini sürdürərək dünyanın fövqəlgüc dövlətlərindən biri olub, hakimiyyəti altında olan xalqları irqi, dini mənsubiyyətindən asılı olmayaraq ədalətlə idarə edib. Xalqlar Osmanlı hakimiyyəti altında daim hüzur içərisində yaşayıblar. Osmanlı dövləti Şərq xalqlarını Qərbin müstəmləkə zülmündən qoruyub, Qərbin bəzi imperiyalarının Şərqdə hökmranlığına son qoyulmasında, Şərq xalqlarının azadlığa çıxmasında müstəsna rol oynayıb. Qərbin bəzi ölkələri və dairələri bu tarixi unuda bilmirlər".



**Musa Qasımlı:**
"İyrənc siyasətin qarşısında dayana bilən ölkə yalnız Türkiyədir"



**Sabir Rüstəmxanlı:**
"Avropa ilə Türkiyə arasında Çin səddi çəkmək olmaz"

**Tarixçi alim zamanı gələndə Avropa ölkələrinin Türkiyə siyasətlərinin səhv olduqlarını görəcəklərini düşünür:** "Müasir siyasət baxımından yanaşdıqda indi dünyada zəngin təbii sərvətləri, strateji mövqeləri ələ keçirmək uğrunda açıq-aşkar müharibə gedir. Bu məqsədlərinə çatmaq naminə Qərbin bəzi dövlətləri müsəlman ölkələrində müəyyən qrup və təbəqələrin cahilliyindən istifadə edərək onları zəifləmək, parçalamaq, dövlətçiklər qurmaq üçün ərazilərində münaqişələr, terror aktları törədirlər, məzhəbçiliyi yayırlar. Bu, mahiyyətinə görə Qərbin bəzi dövlətlərinin yeni müstəmləkəçilik siyasətidir. Xalqlara bədbəxtliklər gətirən belə iyrənc siyasətin qarşısında dayana bilən ölkə yalnız Türkiyədir. Türkiyənin hədəf seçilməsi əsasən bu amillə və bir də güclü şəxsiyyət amili ilə bağlıdır. Bu gün Türkiyə bir neçə on illərin Türkiyəsi deyil, daha da güclüdür. Güclü Türkiyə isə Qərbin bəzi dairələrinə lazım deyil. Onlar Türkiyəni zəif və idarəolunan görmək istəyirlər. Çünki Türkiyə bəzi güclərin və problemlərin qarşısında bufer rolunu oynayaraq Avropa dövlətlərini bir çox təhlükələrdən qoruyur. Bir gün Avropa ölkələri gözlərini açacaqlar və görəcəklər ki, onların Türkiyə siyasəti səhvdir və özləri ziyan görürlər".

**VHP sədri, xalq şairi Sabir Rüstəmxanlı Birinci Dünya müharibəsində tutulan səhv mövqenin osmanlıların süqutu ilə nəticələndiyini və Türkiyənin bölünmə təhlükəsi ilə üzləşdiyini bildirdi:** "Türkiyəyə yalnız İslam ölkəsi kimi baxmaq olmaz. Dövlətin bir hissəsi Avropada, bir hissəsi də Asiyadadır. Öz yaşamına, mədəni səviyyəsinə, sivilizasiyasına görə heç də Avropadan fərqlənmir. Avropa ilə Türkiyə arasında Çin səddi çəkmək olmaz. Türkiyənin Avropa ilə yaxınlaşması təxminən 200 ilə yaxın müddət başlayan prosesdir. O zamanlar getdikcə Osmanlı Avropadan geri qalırdı, bunun üçün bəzi dəyişikliklər aparıldı. Sonralar Türkiyə daxilindəki qarşıdurmalar, I Dünya müharibəsində tutulan səhv mövqe Osmanlının süqutuna doğru apardı. Həmin vaxtlar çox gözəl, strateji ərazilər itirildi. Milyonlarla insan həmin ərazilərdən Türkiyəyə qayıtdılar. Faktiki həmin vaxt Avropa qardaş ölkəni parçalamaq istəsə də, çıxılmaz vəziyyətdən Türkiyəni Atatürk çıxardı. XX əsrin bəlkə də ən dahi şəxsiyyəti o oldu. Bu gün Türkiyənin ən böyük problemi onun qoyduğu xəttin uğurlu şəkildə həyata keçirilməməsidir. Atatürk xətti Avropanı heyrətə salırdı. O xəttin qarşısında Türkiyəni sevməyən ölkələr də baş əyməli olurdular. Sonralar bu xətdən yayınmalar bu cür problemlərə gətirib çıxardı. Avropa Türkiyənin Osmanlı İmperiyasının yerində qurulduğunu yaxşı bilirdi, amma Atatürkün demokratiya sistemi nifrətin qarşısını alırdı. Çünki o zamanlar dəyərlərinə, idarəçilik sistemine görə Türkiyə Avropadan geri qalmırdı. Amma indi dini siyasətə qatırlar. Konstitusiya dəyişikliyi adı altında tək hakimiyyətlilik yolu ilə demokratiyaya kölgə salırlar. Bu zaman isə Avropanın əlinə bəhanə verilir. Açığı, Türkiyənin Avropaya üz tutmasının əleyhinə hər zaman olmuşam. 1988-ci ildə Türkiyədə olarkən müsahibəmdə demişdim ki, Türkiyə üzünü Avropaya deyil, Şərqə tərəf çevirməlidir".

❑ **Cavanşir ABBASLI**

# Hakim komanda ciddi dəyişiklik ərəfəsində

**Ötən il sentyabrın 26-da keçirilmiş referendumda təsis edilən vitse-prezident postlarına təyinatlar bugünlərdə gerçəkləşəcək. Məlumdur ki, fevralın 21-də Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva birinci vitse-prezident təyin edilib. Aprelin 12-nə qədər isə digər təyinatların da gerçəkləşəcəyi gözlənilir.**




## Vitse-prezidentlər gəlir, Abutalıbovun yeri boşalır - adlar

### Son günlər rəsmi dəvətlərdə görünməyən Artur Rəsi-zadə özü ilə bərabər iki müavinini də istirahətə aparır; Yaqub Eyyubovun baş nazir olmaq şansı varmı? Bakı meri Nazirlər Kabinetinə gedir...

Məlumata görə, vitse-prezidentlərin təyinatı ilə bağlı müddət aprelin 12-də bitir. Çünki prezident İlham Əliyevin referendum nəticəsinin qüvvəyə minməsi ilə bağlı 12 oktyabr 2016-cı ildə verdiyi sərəncamın 6 ayı tamam olur. Sərəncamda Nazirlər Kabinetinə altı ay vaxt verilir ki, hüquqi-aktların konstitusiya dəyişikliyinə uyğunlaşdırılmasını təmin etsin və dəyişikliklərdən irəli gələn müvafiq hüquqi aktların layihələrini hazırlayıb prezidentə təqdim etsin. Çünki gözlənilən köklü islahatların həyata keçirilməsi üçün ilk olaraq hüquqi baza yaradılmalı və ondan sonra bu islahatlar həyata keçirilməlidir.

Hakimiyyətə yaxın mənbənin dediyinə görə, vitse-prezidentlərin təyinatı ilə paralel olaraq iki strukturda-Nazirlər Kabinetində və Bakı Şəhər İcra Hakimiyyətində ciddi dəyişikliklər gözlənilir.

Mənbə baş nazir Artur Rəsi-zadənin son günlər görünməməsinə xüsusi diqqət çəkir. Bildirilir ki, baş nazir Qazaxıstan prezidenti Nursultan Nazarbayevin Bakıya səfərində rəsmi şəxslər arasında olmayıb. Mənbə bildirib ki, baş nazirlə bərabər onun ən azı bir müavini də işi ilə vidalaşmalı olacaq. Belə ki, struktur dəyişikliyindən sonra baş nazirlə bərabər onun fövqəladə hallar üzrə müavini Abid Şərifov da yola salınacaq. A.Rəsi-zadənin yeri bilinməsə də, 77 yaşlı A.Şərifov hazırda İsraildədir və onun ağır ürək əməliyyatı keçirdiyi deyilir.

Kənd təsərrüfatını kurasiya edən İsmət Abbasovun da baş nazirin müavini statusunu itirəcəyi gələn xəbərlər sırasındadır.

Əsasən birinci vitse-prezidentin kurasiya edəcəyi Nazirlər Kabinetində idarəçiliyə kimin gətiriləcəyi də yəqinləşib. Amma bu istiqamətdə hazırda məlumatlar o qədər çoxdur ki, hansının yanlış, hansının doğru olduğunu demək çətindir. Bildirilir ki, kabinetə başçılığın baş nazirin birinci müavini Yaqub Eyyubova həvalə edilməsi daha real görünür. Uzun illərdir birinci müavin olan Y.Eyyubovun bacarıqlı təşkilatçı olduğu deyilir. Y.Eyyubovun Rusiyanın siyasi və iqtisadi komandası ilə yaxın əlaqələri var ki, bu da baş nazir təyinatından sonra Azərbaycana əlavə divident gətirə bilər. Amma hazırda işləyən nazirlərdən daha iki nəfərin də adı baş nazir iddiaçıları sırasındadır.

Baş nazirin müavinlərinin sayı azaldılmaqla bərabər, bir-birilərinə paralel sayılan strukturlar birləşdiriləcək. Nazirlər Kabinetinin tərkibinə daxil olan 44-dək strukturun yarıbayarı azaldılacağı gözlənilir.

Bakı meriyasının tabeliyindəki ləğv ediləcək idarələrin siyahısı da hazırlanıb. Belə ki, Mənzil Kommunal və Texniki Xidmət Sahələri, Ticarət və Xidmət Departamenti, Yaşıllaşdırma Təsərrüfatı Birliyi, Memarlıq və Şəhərsalma Baş İdarəsi, Mənzil-Kooperativ Təsərrüfatı İdarəsindən başqa digər strukturlar ya birdəfəlik ləğv olunacaq, ya da birləşdiriləcək. Bu struktur dəyişikliyindən sonra isə Bakının yeni icra başçısının təyinatı gerçəkləşəcək.

Qeyd olunur ki, birinci vitse-prezident Bakı meriyasının idarə edilməsində ciddi dəyişiklik etmək niyyətindədir. Hacıbala Abutalıbovu dəyişmədən isə bu idarəetməni dəyişmək mümkün deyil. Abutalıbovun hakimiyyətə hədsiz sədaqətinə söz ola bilməz, amma o da anlayır ki, nəhayət, bir gün hakim komanda ilə vidalaşmalıdır. Bildirilir ki, Abutalıbov artıq bu həqiqətlə barışıb.

Ona Nazirlər Kabinetində şəhər təsərrüfatına məsul idarə həvalə olunacağı deyilir. Abutalıbovun özünün isə Bakının rayonlarından birində (Binəqədinin adı hallanır) icra başçısı olmaq niyyəti də var.

Bakı meriyasına rəhbərliyin kimə tapşıra biləcəyini isə söyləmək çox çətindir. Bu şəxsin Heydər Əliyev Fondunun idarəçiliyində işləyənlərdən biri olacağı söylənilir, amma bu, yalnız bir ehtimaldır.

❑ **"YM"**

# ANS-lə bağlı daha bir müəmma

## Qulu Məhərrəmli: "ANS-in bağlanması hüquq məsələsi deyil"



**ANS telekanalının rəhbərliyi Avropa İnsan Hüquqları Məhkəməsinə şikayət edib. AzadlıqRadiosunun yaydığı məlumatda qeyd olunur ki, şikayətdə telekanalın lisenziyasının ləğvi barədə yerli məhkəmələrin qərarlarının qanunsuz və əsassız olduğu göstərilib.**



Qulu Məhərrəmli

Eyni zamanda ANS-ə münasibətdə Avropa Konvensiyasının 6 (ədalətli məhkəmə araşdırması hüququ) və 10-cu (fikri ifadə etmək azadlığı) maddələrinin tanınması xahiş olunub.

Onu da qeyd edək ki, son günlər ANS-in rəhbərliyi arxivlərinin təhlükədə olması ilə bağlı bəyanat yaymışdı. Bəyanatda bildirilirdi ki, son zamanlar ANS-ə məxsus maddi və mənəvi irslə bağlı müəllif hüquqlarının kobud surətdə pozulması halları tez-tez müşahidə olunur.

**Yayılan xəbərə münasibət öyrənmək və məlumatı dəqiqləşdirmək üçün ANS Şirkətlər Qrupu prezidentinin media üzrə müşaviri olmuş Mais Məmmədovla əlaqə saxladıq. M. Məmmədov "Yeni Müsavat"a bildirdi ki, məsələdən xəbərsizdir:** "Mən yayılan xəbərdən məlumatsızam. Avropa Məhkəməsinə müraciət məsələsinə gəlincə isə bu barədə də heç bir fikrim yoxdur. Ümumiyyətlə, ANS-lə bağlı hansı işlərin görülməsindən xəbərim yoxdur".

**ANS-ÇM Yayım və Media Şirkətinin baş direktoru olmuş Sevda Həsənova ilə də əlaqə saxladıq. S. Həsənova da oxşar fikirlər səsləndirdi:** "Bu barədə məndə məlumat yoxdur. Xəbərin AzadlıqRadiosunda yayıldığını deyirlər. Radionun saytına isə daxil olmaq mümkün deyil".

ANS-in digər rəhbər şəxsləri ilə əlaqə cəhdimiz baş tutmadı.

Sosial şəbəkələrdə də bu məsələ istifadəçilər tərəfindən müzakirəyə çıxarılıb. Bəzi istifadəçilər yazırlar ki, hər zaman vətənpərvərlikdən danışan ANS-in rəhbərləri indi Avropa Məhkəməsinə müraciət edir. Digər bir qisim isə hesab edir ki, bu addım hökuməti daha da qıcıqlandıracaq.

**Telejurnalist Qulu Məhərrəmli "Yeni Müsavat"a mövzu ilə bağlı bildirib ki, bu məsələdə ANS-in rəhbərliyini qınamaq doğru deyil:** "Ümumilikdə, bu proses çox mürəkkəb bir prosesdir. Əlbəttə ki, Azərbaycanda heç kim qəzetin və ya televiziyanın bağlanmasını istəməz. Avropa Məhkəməsinə müraciət etmək isə hesab edirəm ki, vətənə xəyanət anlamına gəlmir. Çünki insanlar belə hesab edirlər ki, əgər pozulmuş hüquqları yerli məhkəmə bərpa edə bilmirsə, bunu Avropa Məhkəməsi həll edə bilər. Məncə, bu, sadəcə olaraq, bir prosedurdur. Şəxsən bu prosedurun bir faydasını görməsəm də, heç kimi də Avropa Məhkəməsinə müraciət etməsinə görə qınamaq olmaz. Belə hesab edirəm ki, ANS-in bağlanması hüquq məsələsi deyil. Ona görə də problemin hüquqi yolla da həll olunması bir qədər çətin məsələdir. Hər kəsə məlumdur ki, ANS hansı səbəbdən bağlanıb. Bu baxımdan, hüquq yolu ilə kanalın açılmasına nail olmaq cəhdi hüququn nə dərəcədə təsirli olmasını yoxlamaqla əlaqədar ola bilər. Məsələ ilə bağlı insanların da fikirlərinin birmənalı olmaması onunla əlaqəlidir ki, əvvəldən hüquq yolu ilə həll kursu götürülməyib. Azərbaycanda məhkəmələrin durumu, qərarların necə qəbul olunması da çoxlarına bəllidir. Digər tərəfdən də ANS-çiləri də anlamaq olar ki, onlar kanalın açılmasını istəyirlər və bu yolu götürüblər. Bunun sonu necə olacaqsa, indidən söyləmək çətindir".

**Q.Məhərrəmli bildirib ki, bu addım hökuməti, eləcə də bəzi şəxsləri qıcıqlandıra bilər:** "Əlbəttə ki, bu addım hökuməti, müəyyən adamları, ANS əleyhdarlarını qıcıqlandıra bilər. Yaxşı, bəs bu qıcıq nə verəcək? ANS onsuz da efir məkanından məhrum olub, arxivlərinə də yaxın düşə bilmirlər. Ona görə də məhkəməyə müraciət edirlər. Qıcıqlandırma məsələsi bir qədər hissi məsələdir. Yəni bu addım qıcıqlandırıb daha pis nəticələrə səbəb olur, yaxud da indiki halda nə əldə olunur, deyə bunları götür-qoy etmək lazımdır. Götür-qoy etdikdə problemin həllinin daha da mürəkkəb bir mərhələyə qədəm qoyduğunu görürük".

Yada salaq ki, Milli Televiziya və Radio Şurası (MTRŞ) Türkiyədə ötən il 15 iyul hadisələrindən sonra ANS-in efirində Fətullah Gülənin müdafiəsinə yönəlik, terrora çağırış xarakterli materialların yayımlandığını iddia edərək, 18 iyul 2016-cı ildə saat 18:30-dan etibarən bu kanalın yayımını dayandırıb. Şura daha sonra ANS-ə 25 oktyabr 2013-cü ildə verilmiş lisenziyanın ləğvi üçün məhkəməyə müraciət edib. Məhkəmə iddianı təmin edib. Ali Məhkəmə də bu qərarı qüvvədə saxlayıb. ANS rəhbərliyi həmin qərardan Avropa Məhkəməsinə şikayət edib.

Teleradio Şurası ANS-ÇM radiosunun da lisenziyasını ləğv edib. ANS rəhbərliyi hesab edir ki, telekanalda terrorçuluğun təbliği barədə iddiaların heç bir əsası yoxdur.

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 69 (6683) 5 aprel 2017



## Millət vəkili Elxan Süleymanovun təşəbbüsü ilə şamaxılı aprel şəhidləri yad edildi

### Şamaxılı şəhidlərin xatirəsinə həsr olunmuş "Samir! Nazim! Elşən!" kitabı da ictimaiyyətə təqdim edildi



**Aprelin 4-də Şamaxı şəhərindəki Mədəniyyət Sarayında Şamaxının millət vəkili Elxan Süleymanovun təşəbbüsü ilə "Torpaq uğrunda ölən varsa, Vətəndir!" adlı tədbir keçirilib. Musavat.com xəbər verir ki, Şamaxı ictimaiyyəti nümayəndələrinin, hərbçilərinin, şəhid ailələrinin iştirak etdikləri tədbir 2016-cı ilin aprel döyüşləri zamanı həlak olan şamaxılı döyüşçülər - Samir Kaçayevin, Nazım Zəkərəyevin və Elşən Səmədovun xatirələrinə həsr olunmuşdu. Tədbiri giriş sözü ilə millət vəkili Elxan Süleymanovun Şamaxı rayonundakı səlahiyyətli nümayəndəsi, pedaqoji elmlər üzrə fəlsəfə doktoru Dəyanət Musayev açdı. Tədbir iştirakçıları Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsini bir dəqiqəlik sükutla yad etdilər. Sonra çıxış edən Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şamaxı şöbəsinin rəisi Nasir Qurbanov, Şamaxı rayon Ağsaqqallar Şurasının sədri Mayıl Alıcanov, ehtiyatda olan zabit, birinci Qarabağ müharibəsinin iştirakçısı Yalçın Şıxıyev ötən ilin aprelində erməni silahlı qüvvələrinin cəbhə xəttində törətdikləri təxribatlara Azərbaycan ordusunun verdiyi layiqli cavabdan, hərbçilərimizin döyüş meydanında göstərdikləri şücaətlərdən danışdılar.**

Dəyanət Musayev iştirakçılara AVCİYA-nın layihəsi olan 1905.az portalının "1905.az kitabı" layihəsindən bəhs etdi və sözü bu layihə çərçivəsində çapdan çıxmış "Samir! Nazim! Elşən!" kitabının müəllifi Aida Eyvazlı Göytürkə verdi. Xatırladaq ki, kitaba yuxarıda adları çəkilən şəhidlərlə bağlı müəllifin modern.az saytında dərc edilmiş yazıları daxil edilib. Aida Eyvazlı Göytürk kitab haqqında ətraflı danışaraq, Azərbaycanın qalibiyyət şəhidlərinin həyat yolu ilə bağlı məlumat verdi. Aida xanım "Samir! Nazim! Elşən!" kitabının ərsəyə gəlməsində göstərdiyi köməyə görə Elxan Süleymanova minnətdarlığını bildirdi. Samir Kaçayevin Çuxuryurd kənd tam orta məktəbində sinif rəhbəri olan Güntəkin Xummetov şəhid haqqında xairələrini bölüşdü, Nazim Zəkərəyevin atası Nadir Zəkərəyev tədbir iştirakçılarına minnətdarlığını bildirdi. Şamaxının millət vəkilinin dəstəyi ilə 2011-ci ildən keçirilən Mirzə Ələkbər Sabir Bədii Qiraət Müsabiqəsinin qalibləri xalq şairi Qabilin "Azərbaycan əsgəri" şeirini söylədilər. Tədbirin sonunda çıxış edən Şamaxının millət vəkili Elxan Süleymanov 2016-cı il aprel döyüşlərində əldə olunmuş qələbənin tarixi əhəmiyyətindən danışaraq, Azərbaycanın bu döyüşlərdə öz gücünü düşmənə və dünyaya bir daha sübut etdiyini və indiki vəziyyətlə heç vaxt barışmayacağını göstərdiyini qeyd etdi. Millət vəkili Şamaxı şəhidlərinin valideynləri qarşısında baş əydi və onların qanının yerdə qalmayacağını vurğuladı.

Tədbirdən sonra Şamaxıdakı Şəhidlər Xiyabanı ziyarət olundu və şəhid məzarlarının üzərinə gül dəstələri qoyuldu.

Daha sonra Şamaxı şəhərindəki "Miras" Kitav Evində Aida Eyvazlı Göytürk "Samir! Nazim! Elşən!" kitabını oxucular üçün imzalayıb.

❑ **Musavat.com**

## Azərbaycana qarşı "Talış kartı" - bu təxribat da boşa çıxacaq

### Qabil Hüseynli: "Arxiv materialları, sənədlər ermənilərin vəhşiliklərini təsdiq, yalanını isə faş edir..."

**Aprelin 22-dən 27-dək Lənkəranda "XX əsrdə türk-müsəlman xalqlarının soyqırımı" mövzusunda dördüncü beynəlxalq konfrans keçiriləcək. Öncə qeyd edək ki, 1918-1919-cu illərdə Lənkəranda yerli əhali erməni cəlladları tərəfindən soyqırıma məruz qalıb.**

Bundan əvvəl Qubada və Şamaxıda keçirilmiş konfranslarda olduğu kimi, bu konfransın təşkilatçısı da Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutudur. İnstitutdan AZƏRTAC-a bildirilib ki, Ermənistan Azərbaycanda keçiriləcək nüfuzlu elmi forum haqqında məlumata özünəməxsus təhrikçi ruhda reaksiya verib. Belə ki, Ermənistan KİV-ləri mənbəyi bilinməyən, həqiqətdə isə sadəcə mövcud olmayan, primitiv erməni təbliğatının virtual "səyləri" nəticəsində "üzə çıxmış" "Talış ağsaqqalları şurası" adından bədnam bəyanat yayıblar. Bu cızma-qarada erməni təbliğatçıları növbəti dəfə dəridən-qabıqdan çıxaraq tarixdə azərbaycanlıların və digər türk-müsəlman xalqlarının soyqırımının olmadığını sübut etməyə çalışırlar.

**Politoloq Qabil Hüseynliyə görə, ermənilər bu yolla talışları da separatizmə cəlb etmək istəyirlər:** "Onlar uzun illərdir talışları separatizmə cəlb etmək istəsələr də, buna müvəffəq ola bilmirlər. Rusiyada talış mərkəzinin yaradılmasına nail olublar. Bu mərkəz isə tez-tez İrəvanda müxtəlif tədbirlər keçirir. Ermənilər müxtəlif dəstələr halında təkcə Türkiyə və Cənubi Azərbaycan ərazisində deyil, indiki ermənilərin yaşadığı Qərbi Azərbaycanda və müxtəlif regionlarımızda da soyqırımlar həyata keçiriblər. Bu soyqırımlar Azərbaycanın bütün coğrafi ərazilərini əhatə edib. Ancaq Ələt istiqamətində general rütbəli Dro deyilən bandit üzünü Salyan istiqamətinə tutub. O, Salyan-Neftçala istiqamətində böyük qırğınlar törətdikdən sonra Lənkərana doğru irəliləyib. Bu ərazidə də talışlarla azərbaycanlılar birgə yaşayıblar və onların birgə səyi ilə taqətdən düşmüş Dronun dəstəsi ilk toqquşmada məğlubiyyətə uğrayaraq geriyə qayıdıb. Lakin bu toqquşmada azərbaycanlılar və talışlar da həlak olublar. Bütün bunları nəzərə alaraq, qondarma erməni soyqırımı əvəzinə, ermənilər tərəfindən azərbaycanlıların soyqırıma məruz qoyulması haqda danışmaq lazım gəlir. Qars, Ərdahan, İğdır, Urmiya indiki Ermənistan ərazisinin bütün nöqtələri, Azərbaycanda isə Lənkərandan Qubaya qədər olan ərazilərdə Rusiya tərəfindən silahlandırılmış, təlim görmüş erməni quldurları daha çox müsəlmançılıq əlamətlərinə görə insanları qırıblar. Ancaq onların Qubada dağ yəhudilərini, Qusarda isə ləzgiləri öldürməsi onu göstərir ki, təkcə türk müsəlmanlar deyil, Azərbaycanda yaşayan digər millətlər də nişangaha alınıb. Ciddi tarixi araşdırmalar dəqiq surətdə göstərir ki, ermənilərin soyqırım siyasəti nəticəsində Türkiyə, Cənubi, Qərbi, Şimali Azərbaycan ərazilərində 2 milyon yarıma qədər azərbaycanlı türkü, eləcə də digər millətlərin nümayəndələri öldürülüb".




**Politoloq bildirdi ki, bütün bunlar arxiv materialları, müxtəlif rus generallarının xatirələri, Azərbaycan Demokratik Respublikasının yaratdığı istintaq və fövqəladə araşdırma komissiyalarının araşdırmaları əsasında müəyyənləşdirilib:** "Lənkəranda tarixçilərimiz özlərinin araşdırma materialları əsasında ermənilərin bu bölgələrdə həyata keçirdikləri cinayətlərin bütün mənzərəsini açacaqlar. Talış ağsaqqallarının özləri də verəcəkləri bəyanatlarda ermənilərin qondarma bəyanatlarını və talışlara guya toxunmadıqları haqqında yazdıqları fikirləri alt-üst edəcəklər".

❑ **Əli RAİS**

## Müharibə partiyasının qalibiyyəti-erməni xalqı da sülhdən imtina edir?

### Mübariz Əhmədoğlu: "Erməni xalqının seçkidə rəğbəti Levon Ter-Petrosyana idi"

**Ermənistanda 2 apreldə keçirilən parlament seçkilərində prezident Serj Sərkisyanın Respublika Partiyası 50 faizə yaxın səslə qalib elan edildi. Beləliklə, işğalçı ölkədə Qarabağ probleminin həllində maraqlı olmadığını hər addımda ortaya qoyan siyasi qüvvə hakimiyyətdə qaldı. Bəs belə bir nəticənin meydana gəlməsini bütünlükdə erməni xalqının mövqeyi, müharibə yolunu seçməsi saymaq olarmı?**

**Politoloq Mübariz Əhmədoğlu** bildirdi ki, bu seçkinin nəticələrində Rusiyanın rolu var, Serj Sərkisyanın Avropa İttifaqı və Qərblə müəyyən kombinasiyalarının təsiri var, seçki saxtakarlığı var, amma bütövlükdə erməni xalqı yoxdur: "Seçkilərin saxtalaşdırıldığı səsvermənin gedişində artıq bəlli idi. Serj Sərkisyanın, Levon Ter-Petrosyanın, Vardan Oskanyanın sənədinin seçki məntəqəsində xüsusi aparat tərəfindən tanınmaması halı əksər sadə seçicilərlə bağlı yaşanıb. Günortaya qədər vebkameralar işləməyib. Serj Sərkisyan seçkini bu dəfə daha çox Avropa İttifaqının iştirakı ilə saxtalaşdırdı. Rusiya ilə də razılıq əldə etdiyi üçün rahat şəkildə saxtakarlığa getdi. Parlamentə düşən deputatların erməni xalqının maraqlarını müdafiə etməsi demək olar ki, olmayacaq. Parlamentə daxil edilən şəxslərin yarısı rusiyapərəstlərdir, yarısı isə qərbpərəstlərdir. Sərkisyana bağlı olan 3-4 deputat var. Həmin deputatların vasitəsilə Serj Sərkisyan parlamenti istədiyi istiqamətə yönəltməyə çalışacaq. Ermənistanın yeni parlamentində erməni xalqının rolu, seçimi demək olar ki, yoxdur. Erməni xalqı, belə demək mümkündürsə, deputatsızdır. Parlamenti xalq seçmədiyi



Mübariz Əhmədoğlu

üçün iddia etmək istəmirəm ki, bütün erməni xalqı sülhü yox, müharibəni seçmiş oldu. Erməni xalqının seçkidə rəğbəti Levon Ter-Petrosyana və onun təşkilatına idi. Ermənistanda ən çoxminli seçki mitinqi məhz Levon Ter-Petrosyanın mitinqi olmuşdu. Əhalinin ona rəğbətində Qarabağ məsələsinin sülh yolu ilə həllinin vacibliyi barədə verdiyi məlum bəyanatlar da öz təsirini göstərmişdi. Lakin Serj Sərkisyan xalqın seçiminə məhəl qoymadı".

**Politoloq qeyd etdi ki, baş nazir Karen Karapetyanın reytinqi yuxarıdır. Lakin Serj Sərkisyan çox güman çalışacaq ki, baş nazir indiki müdafiə naziri Vigen Sərkisyan olsun. Çünki Vigen Sarkisyan Serj Sərkisyanın kuklasıdır:** "Serj Sərkisyanın indiki baş nazir Karen Karapetyandan ehtiyatlandığı sezilir. Çünki Karen Karapetyan Rusiya tərəfindən dəstəklənən fiqurdur və Viqen Sərkisyan qədər kukla deyil. Serj Sərkisyan isə kukla kimi idarə etdiyi adamın baş nazir olmasını istəyir. Rusiya isə çalışacaq ki, baş nazir kimi Karen Karapetyan qalsın. Rusiya Ermənistanda baş nazir postunu əldən verməyəcək. 2018-ci ilin mayında isə Ermənistanın prezidentini artıq xalq yox, parlament seçəcək. O vaxta qədər Serj Sərkisyan çalışacaq ki, hətta terror yolu ilə olsa da özünə təhlükə ola biləcək və Rusiyadan ciddi dəstək alma ehtimalı olan adamları sıradan çıxarsın".

**Seçkilərin nəticəsinin Dağlıq Qarabağ məsələsinə hansı şəkildə təsir edəcəyinə gəlincə, M.Əhmədoğlu dedi ki, Qarabağ məsələsində təsir rıçağı Ermənistan parlamentinin əlində deyil, Rusiyanın əlindədir.**

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 69 (6683) 5 aprel 2017

# Mehriban Əliyevanın erməni analarına müraciəti təqdir edilir

## Tənzilə Rüstəmxanlı: "Mehriban xanım çox humanist və yerində olan bir addım atıb"

## Novella Cəfəroğlu: "Bu, tam uyğun olan müraciətdir"



**Azərbaycanın birinci vitse-prezidenti, "Heydər Əliyev" Fondunun prezidenti Mehriban Əliyeva aprelin 3-də ötən ilin bu günlərindəki 4 günlük savaşda yaralanan bir qrup əsgər və zabitlə görüşüb. Görüşdə yekun çıxışında ordumuzun qüdrətindən, torpaqlarımızın tezliklə azad olunacağından, Azərbaycan xalqının birliyindən danışan Mehriban xanım erməni analarına müraciət edib.**

M.Əliyevanın müraciəti böyük müzakirələrə səbəb olmaqla yanaşı, ictimaiyyət tərəfindən rəğbətlə qarşılanıb. I vitse-prezidentin bu müraciətinin müsbət nəticələrinin olacağına ümidlər çoxdur. Xüsusilə müraciətin tam zamanında edildiyi vurğulanır.

**Ölkənin ikinci şəxsinin müraciətində bu sözlər yer alır:** "Azərbaycan əsgərləri, oğulları öz vətəni uğurunda mübarizə aparırlar, döyüşürlər, ömürlərini qurban verirlər. Onların mübarizəsi haqq mübarizəsidir. Erməni əsgərinin nə işi var Azərbaycan torpağında? Münaqişənin və itkilərin səbəbi erməni əsgərlərin Azərbaycan torpağında olmasıdır. Erməni analarına üz tutub söyləmək istəyirəm ki, qoymayın öz övladlarınız işğal siyasətinin qurbanları olsunlar, dəstək verməyin işğal siyasətinə. Bunlara tezliklə son qoyulmalıdır. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Münaqişə beynəlxalq hüquq normaları ilə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tezliklə həllini tapmalıdır. İşğalçı qüvvələr Azərbaycan torpaqlarını tərk etməlidirlər. Ondan sonra regionda sülh bərpa olunacaq. Heç bir ana, nə azərbaycanlı, nə də erməni anası oğlunun məzarında göz yaşını tökməyəcək".

Tanınmış azərbaycanlı xanımların M.Əliyevanın müraciətinə mövqelərini öyrəndik.

**Azəri-Türk Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı hesab edir ki, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin yollarından biri də bu cür müraciətlərdir:** "Çox düzgün bir müraciətdir, çox da normaldır. İllər öncə Brüsseldə Novella Cəfəroğlu ilə bir tədbirdə erməni analarını görmüşük. Bir ana kimi ümid edirəm ki, erməni qadınları Mehriban xanımın müraciətinə diqqət edəcəklər. Bir ana üçün öz övladının başqasının torpağında başqa-başqa insanların ölümünə bais olub, onların analarını gözüyaşlı qoymaq çox ağırdır. Ən azından dövlətlərinin apardığı işğalçılıq siyasətinə dur demək üçün hərəkətə keçməlidirlər. Bu müraciətin bəhrə verəcəyinə ümid edirəm. Əgər erməni anaları övladlarının boş-boşuna ölməyini istəmirlərsə, etirazlarını bildirməlidirlər. Bu müraciətin hansı nəticələr verəcəyini yəqin ki, qısa zamanda görəcəyik. Amma hər halda, Mehriban xanım çox humanist və yerində olan bir addım atıb. Müraciətin ermənilərin qat-qat çox itki verdikləri 4 günlük aprel savaşının bir illiyinə təsadüf etməsinin də müsbət tərəfləri var. Çünki o savaşlarda və ondan sonra erməni tərəfin böyük itkilər verdiyi hər kəsə məlumdur. Bu savaşdan sonra ermənilər münaqişənin sülh yolu ilə həllini anladılar, onu da başa düşdülər ki, ruslar arxalarından çəkilsələr, iki günə ordumuzun qarşısında duruş gətirə bilməzlər. Aprel döyüşləri göstərdi ki, Azərbaycan hər şeyə hazırdır".





**Hüquq müdafiəçisi Novella Cəfəroğlu Mehriban xanımın müraciətində dünyaya bir mesajın verildiyini qeyd etdi:** "Dünyaya mesaj verilir ki, analar birləşib, bu münaqişəyə son qoya bilərlər, torpaqlarımız da azad olunar. Yəni Mehriban xanım müharibə istəmədiyimizi söylədi. Bildirildi ki, bizlər erməni analarının övladlarının ölməsini istəmirik. Baxmayaraq ki, torpaqları işğal olunan bizlərik, amma yenə sülh çağırışları edirik. Bu müraciət tam uyğun bir müraciətdir və yerinə düşür. Seçkilərdə uduzmasına baxmayaraq, Levon Ter-Petrosyan da bir daha bildirdi ki, torpaqlar geri qaytarılmalı, insanlar həyatlarını itirməməlidirlər".

❑ **Cavanşir ABBASLI**



# Prezident İlham Əliyevə Serbiyanın ali ordeni təqdim olunub

**Aprelin 4-də Azərbaycan prezidenti İlham Əliyev Serbiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Neboyşa Rodiçi qəbul edib. APA-nın məlumatına görə, səfir Neboyşa Rodiç Azərbaycanla Serbiya arasında dostluq münasibətlərinin və əməkdaşlığın inkişaf etdirilməsi və möhkəmləndirilməsi işinə verdiyi töhfəyə görə Azərbaycan prezidenti İlham Əliyevin 2013-cü ildə təltif edildiyi Serbiyanın ali ordenini dövlət başçısına təqdim edib. Səfir dövlət başçısına ali ordenə layiq görülməsi münasibətilə Serbiyanın prezidenti Tomislav Nikoliçin təbriklərini çatdırıb.**

Prezident İlham Əliyev ali ordenə layiq görülməsini yüksək qiymətləndirib və təbriklərə görə minnətdarlığını Serbiya prezidentinə çatdırmağı xahiş edib. Dövlət başçısı İlham Əliyev prezident Tomislav Nikoliçin Azərbaycana səfəri və onunla Bakıda keçirdiyi görüşü məmnunluqla xatırlayıb.

Prezident İlham Əliyev eyni zamanda Serbiyada keçirilmiş son prezident seçkilərində Aleksandr Vuçiçin qələbəsi münasibətilə təbriklərini çatdırmağı xahiş edib.

Görüş zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluq ifadə edilib, Azərbaycanın Serbiyanın yol infrastrukturunun modernləşdirilməsi istiqamətində həyata keçirdiyi işlər yüksək qiymətləndirilib.

# Deputatlar ÜAK-la bağlı problemə görə Moskvaya getmək istəyirlər

## Fazil Mustafa: "Azərbaycanda rus icmasının rəhbəri deputatdır, Rusiya parlamentində bir nəfər də olsun azərbaycanlı yoxdur"

**Rusiya Ədliyyə Nazirliyi Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) ləğv edilməsi üçün Ali Məhkəməyə müraciət edib. Rusiya Ali Məhkəməsinin qərarına əsasən, müvafiq məhkəmə işinə aprelin 11-də baxılacaq.**

Xatırladaq ki, ÜAK mərhum dövlət başçısı Heydər Əliyevin təşəbbüsü ilə təsis olunub və konfransda Rusiya prezidenti Vladimir Putin da iştirak edib. Bundan başqa, Azərbaycan və Rusiya prezidentləri ÜAK-ın bütün qurultaylarına təbrik məktubları göndəriblər, qurumun fəaliyyətini yüksək qiymətləndiriblər.

Ötən ilin dekabrında Moskvada ÜAK-ın IV Qurultayında təşkilatın rəhbər orqanlarına yeni seçkilər keçirilib. Səsvermə nəticəsində tanınmış ictimai xadim, tibb elmləri namizədi, professor Fazil Qurbanov qurumun yeni prezidenti seçilib. Qurultayda ÜAK-ın Rəyasət Heyəti və Mərkəzi Şurasına yeni üzvlər də seçilib. Qurumun vitse-prezidentləri sırasında da kifayət qədər tanınmış şəxslər yer alıb. Məsələn, Mixail Qusman, dünyada tanınmış iş adamları Qod Nisanov, İsgəndər Xəlilov və dünya şöhrətli rəssam Tahir Salahovun adını çəkmək kifayətdir. Qeyd edək ki, son qurultayda Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, Rusiyanın 78 bölgəsindən 200-dən artıq təmsilçi də iştirak edib.

Siyasi ekspertlər bildirir ki, Rusiyadan son zamanlar Azərbaycana müxtəlif yollarla psixoloji təzyiq göstərildiyi sezilir. İndi də ÜAK-ın qeydiyyatı məsələsinin ortaya atılması təzyiqin daha bir forması sayıla bilər. Burada Rusiyada güc sahibi olan ermənilərin də rolu var. Ermənilər bu istiqamətdə ruslara təsir göstərir və ruslarda bu təşkilatın guya Rusiya xeyrinə olmayan əməllərdə bulunduğu rəyini yaratmağa çalışırlar. Görünür, Rusiyanın müəyyən rəsmi dairələri də bu təbliğatın təsiri altına düşürlər.



Azərbaycan-Rusiya parlamentlərarası dostluq qrupunun üzvü deputat Fazil Mustafa məsələ ilə bağlı "Yeni Müsavat"a açıqlama verib. F.Mustafanın sözlərinə görə, ÜAK Azərbaycanın güclü diaspora təşkilatıdır. Belə bir təşkilatın qeydiyyatının ləğvi məsələsinin gündəmə gətirilməsi xoş niyyətlərin olmamasından xəbər verir və narahatlıq yaratmaya bilməz. Azərbaycanda rus icmaları ilə bağlı heç bir problem yaradılmır. Əslində ən çox dəstək verdiyimiz qurumlar sırasında Azərbaycandakı rus icması və rusların digər qurumları yer alır. Azərbaycanda rus icmasının rəhbəri parlamentin deputatıdır. Halbuki Rusiya parlamentində bir nəfər də olsun azərbaycanlı yoxdur. İndi ÜAK-ın qeydiyyatının ləğvi məsələsinin gündəmə gətirilməsi bizim dostluq jestlərimizə qarşı Rusiya tərəfindən atılan müəyyən narahatedici addımlardır. Hakimiyyət səviyyəsində bu məsələnin həllinə çalışmaq lazımdır. Ən azı məhkəmədə qeydiyyatın ləğvi iddiasının əsaslı olmadığını ortaya qoymaq və diaspora təşkilatlarımızı canlandırmaq lazımdır ki, yaradılan problemə etirazlar ortaya qoyulsun. Əks halda, bir pis presedentin əsası qoyulacaq, istənilən vaxt azərbaycanlıların təşkilatlanmasına imkan verilməyəcək müəyyən maneələrin yaradılması mümkündür. Odur ki, bu məsələyə barmaqarası, sadə məsələ kimi baxmaq tamamilə yanlış və zərərimizə olardı. İstər Diaspora Komitəsi, istər Xarici İşlər Nazirliyi bu məsələ ilə bağlı çox sərt mövqe bildirməlidir və ciddi aparılmalıdır. Rusiya səfirinin və Moskvanın diqqətinə çatdırılmalıdır ki, bu, gələcəkdə yaxşı tendensiyanın əsasını qoymur, Azərbaycandakı rus icmasına münasibətə göstərilən münasibətə adekvat addım deyil. Bəlkə bu yolla müəyyən təsir göstərmək mümkün oldu".

**F.Mustafa onu da qeyd etdi ki, Rusiya parlamenti ilə dostluq qrupunun üzvlərinin spikerin müavinlərindən birinin rəhbərliyi ilə Moskvaya ezam olunması təklifləri müsbət təklifdir:** "Bu addımın atılması da faydalı ola bilər. Ən azı bunu etmək lazımdır. Ümumiyyətlə, bütün mümkün vasitələrdən istifadə edilməlidir. Rusiya parlamentariləri ilə iş aparmaq lazımdır, ən azı Rusiya parlamentində məsələyə etiraz bildirən mövqelər səslənməlidir. Orada görüşlər keçirib ÜAK-ın qeydiyyatının ləğvinin mənasız və iki ölkənin münasibətlərinə soyuqluq gətirəcək bir addım olduğunu diqqətə çatdırmaq lazımdır. Bu vacibdir".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 69 (6683) 5 aprel 2017



# Yadullanın hesabatı

Zamin HACI
zaminhaci@gmail.com

**Mərkəzi Seçki Komissiyasının saytında siyasi partiyaların 2016-cı il üzrə maliyyə hesabatı yerləşdirilib. Yeni Azərbaycan Partiyası 7 milyon manat qazanıb, xərcləyib, Müsavat Partiyası isə 7 min manat. Bu, ölkədə siyasi uçurumun, cəmiyyətdəki kontrastların miqyasını təsəvvür eləmək üçün bəlkə də dəqiq göstəricilərdən biridir. Ancaq o hesabatda bir çox başqa partiyacıqların da adı yer alır ki, zəhmətkeşlərimiz onların adını heç bilmirlər.**

Hesabatlardan belə məlum olur ki, Müsavat Partiyası MSK-ya çoxlu sayda "sıfır" təqdim edibdir, çünki sənədin bütün aktiv-maktiv bölmələrində 0 yazıblar. Bunu Məzahir müəllimlə məzələnmək üçünmü ediblər, ya partiya öz həqiqi maliyyə durumunu hökumətdən gizlətmək istəyir? Deyə bilmərik. Hər halda, ölkədə siyasi dəyişikliyə iddialı qurumun aktivlərində çoxlu sıfırların olması - ya zəlzələdən, ya vəlvələdən, bunu müzakirə eləmirik - ona hansısa uğur, yüksəklik gətirmir.

Eyni zamanda hesabatda Müsavatın aylıq üzvlük haqqı verən üzvlərinin sayı da açıqlanıb və bu, hər ay 200-235 nəfər arasında dəyişmişdir. Düzü, partiyada üzvlük haqqının nə qədər olduğunu bilmirəm, böyük ehtimal bu hardasa 1-2 manat arası dəyişir. Hərçənd xırdaçılıq çıxmasın, əlimizdə olan rəqəmlərdən orta üzvlük haqqı məbləğini tapmaq elə çətin deyil. Misal üçün, Müsavatın 2016-cı ilin yanvarında üzvlük haqqı ödəyən üzvlərinin sayı 225 nəfər olub. Üzvlük haqqının ümumi məbləği isə 585 manata çatıb. 585-i 225 nəfər arasında böldük, adambaşına 2 manat 60 qəpik düşdü.

Müsavat kimi qocaman partiyanın üzvlük haqqı verməyə imkanı çatan üzvlərinin ayda 235 nəfəri keçməməsi acınacaqlı haldır. Siyasətdə uğur qazanmaq üçün maliyyə, pul gücü də lazımdır. Yalnız sözlər və iqtidarın uğursuzluqları üzərində qurulan təbliğatla ötən 23 ildə nəyə nail olunub - bunu tapmağı cəmiyyətin öhdəsinə buraxıram.

Hərçənd YAP-ın hesabatından belə çıxır ki, rəsmən 700 min üzvü olan partiyanın da üzvlük haqqından gəliri ötən il cəmi 18 min manat olubdur. Yəni o qədər üzvün belə çıxır 0 faizə yaxını üzvlük haqqı veribdir. Fəaliyyəti sıfır olan partiyadan uyğun rəqəmdir.

Ən maraqlı hesabatlar isə oyuncaq əl partiyalarınındır. Onların hamısı standart 98 min manatlıq gəlir-çıxar açıqlayıblar. Deyə bilərsiniz, bu necə olur, axı partiyalar inkubator toyuqları deyil eyni yumurtadan eyni cücə çıxsın? Sadəcə, burda sirr həmin oyuncaq partiyalara ayrılan illik 100 min manat puldadır. Onlar hesabatda bu rəqəmi göstəriblər və belə çıxır heç üzvlük haqqı-zad olmayıbdır.

Həmin partiyacıqlardan Sosial Rifah Partiyasının hesabatına xüsusi diqqət ayıraq, çünki Xanhüseyn əkə həm də "Narxoz"un müəllimi işləmişdir. Sözgəlişi, 1998-ci il prezident seçkisində iqtidar namizədlik üçün Xanhüseyn müəllimə 50 min imza düzəltmişdi, ancaq seçkidə cəmi 3 min səs yazmışdı. Sanki Xanhüseyn müəllimin prezident olmasını istəyən 50 min nəfərdən 47 mini təbliğat dövründə fikrini dəyişmişdi. İndi də hesabatda belə anekdot rəqəmlər var. Misal üçün, partiyanın informasiya təminatı, ictimaiyyətlə əlaqələri və aparatın saxlanması kimi xərclərə guya 60 min manata yaxın pul gedib. Ancaq Google axtarış portalında "Sosial Rifah Partiyası" yazıb son 1 ilin informasiyasını axtaranda ortaya cəmi 2 xəbər çıxır, onun biri 2016-cı ilin aprelinə, o biri də elə 2017-ci il aprelinə aiddir. Ay sağ olun, düz tapmısınız: həmin iki xəbər də elə SRP-nin MSK-ya maliyyə hesabatı verməsi haqdadır.

3 noutbuk və 1 dəst ofis mebelinin alınmasına isə Xanhüseyn müəllim 8500 manat xərcləyib, halbuki orta bazar qiyməti ilə bunların dəyəri 2500 manatı keçmir. Bu da sənə "sosial rifah"...

Pullar dövlət büdcəsindən ayrılmasa, heç vecimizə olmazdı. Ancaq adamın bir az pisinə gəlir ki, səni həm seçkidə aldadalar, həm biznes quralar, həm saxta deputat maaşı alalar, üstəlik, dövlət büdcəsindən uydurma partiyalarını da maliyyələşdirmək adıyla pul qopardalar. "Yadullanın müsibəti" kimi bir şeydir.

# Ter-Petrosyandan Qarabağla bağlı növbəti sensason açıqlama və etiraflar

## Ermənistanın keçmiş prezidenti Azərbaycan ərazilərini işğal etdiyini şəxsən təsdiqlədi; Bakı məxfi danışıqlarla bağlı sirləri açan sabiq prezidentin dediklərinə reaksiya vermir; **Tofiq Zülfüqarov:** "Bu iddialara aydınlıq gətirilməlidir"



**Qarabağ probleminin indiki mərhələdə həll olunmayacağı təqdirdə Ermənistanı gözləyən böyük faciələrin anonsunu verən, elə sülh mesajları nəticəsində "müharibə partiyasına" biabırçı şəkildə uduzdurulan keçmiş prezident Levon Ter-Petrosyan növbəti ilginc açılamaları ilə diqqəti özünə cəlb edib. O, Ermənistan televiziyasına müsahibəsində işğalçı ölkənin vətəndaşı olduğunu etiraf edərək deyib ki, hazırkı durumda problem Ermənistanla Azərbaycan arasında yox, İrəvanla dünya birliyi arasındadır.**

"Biz, yəni həm Azərbaycan, həm də Ermənistan dünyanın ən nüfuzlu təşkilatlarının - BMT və ATƏT-in bərabərhüquqlu üzvləriyik. Münaqişənin həlli ilə əlaqədar prinsipləri də nə Azərbaycan, nə Ermənistan, nə də Qarabağ müəyyənləşdirir. Onu beynəlxalq birlik müəyyənləşdirir" deyən eks-prezident qeyd edib ki, danışıqlarda masaya qoyulan təkliflər yeni deyil, üstəlik, bu təklifləri Bakı və ya İrəvan yox, beynəlxalq təşkilatlar verib: "İndi isə məsələ daha konkret qoyulub. Artıq nə mən, nə münaqişə tərəfləri hər hansı yeni plan irəli sürə bilərik. Ortada münaqişənin nizamlanması üçün "Madrid prinsipləri" adlandırılan plan var. 2007-ci ildən bəri məhz bu plan üzərində müzakirə aparılır". Onun sözlərinə görə, indiyədək tərəflərə 6 belə plan təqdim edilib: "Paket, mərhələli, "ümumi dövlət", Ki-Uest planı, daha sonra ABŞ-ın Minsk Qrupunu iradəsi xaricində irəli sürdüyü plan və nəhayət, "Madrid prinsipləri".

"Bu prinsiplərlə bağlı həmsədrlər arasında da fikir ayrılığı yoxdur. Onların sırasında ərazilərin geri qaytarılması və güc tətbiq etməməklə bağlı öhdəlik var. Bundan başqa, Dağlıq Qarabağ üçün öz müqəddəratını təyinetmə hüququ, əlavə olaraq, təhlükəsizlik mexanizmlərinin tətbiqi, bölgəyə sülhməramlı qüvvələrin yerləşdirilməsi və s. də planda yer alır. Ter-Petrosyanın sözlərinə görə, əvvəllər mübahisəli məsələlər çox olsa da, indi onların sayı 2-3-ə enib" - Ter-Petrosyan bildirib.

**Erməni müxbirin "Ermənistan güzəştlərə hazırdır, Azərbaycan yox" sualına Ter-Petrosyan belə cavab verib:** "Azərbaycan güzəştlərə hazır olmasaydı, Minsk Qrupunun apardığı prosesdə iştirak etməzdi. Yəni hər iki tərəf güzəştlərə hazırdır. Sadəcə, onlar mümkün qədər üstünlük qazanmağa çalışırlar. Bu da təbiidir. Doğrudur, hansısa mərhələdə hər iki tərəf bu plana da "yox" deyə bilər. Ancaq bu, hələ ki baş verməyib".

**"Azərbaycan Dağlıq Qarabağın müstəqilliyini tanımağa hazırdırmı" sualına isə eks-prezidentin reaksiyası belə olub:** "Bu, tamamilə başqa məsələdir və bəlkə də heç Azərbaycandan asılı deyil. Bəlkə də bu məsələni də beynəlxalq birlik müəyyən edəcək. Qarabağın statusunu Azərbaycan yox, Minsk Qrupunun həmsədrləri müəyyən edəcək. Vəssalam. Sadəcə, bu, onlar üçün birinci dərəcəli məsələ deyil. Odur ki, bu istiqamətdə ciddi səy göstərmirlər. Münaqişənin həll olunmaması da tərəflərin deyil, vasitəçilərin günahıdır".

***Zəruri qeyd:*** **Ter-Petrosyan unudub ki, Azərbaycan ərazi məsələsinin müzakirə predmeti olmayacağına israrlı olmasaydı, çoxdan güzəştli sülhə razılıq verərdi. Bakı Dağlıq Qarabağ ermənilərinə ölkəmiz daxilində muxtar respublika statusundan artığını vermək niyyətində deyil.**

**Özünü "çoxbilmiş" kimi göstərən eks-prezident Qarabağ ermənilərinin nə zaman qatılacağını bildiyini deyib, lakin "açıqlaya bilmərəm" əlavəsini edib.** "Ümumiyyətlə, mən Ermənistanla Azərbaycan arasında müzakirələrin sonuncu mərhələsində razılaşdırıla biləcək məqamları da bilirəm. Bunlar çox deyil. Əsas odur ki, artıq böyük ixtilaflara son qoyulub və razılaşdırılmalı olan 2-3 məqam qalıb. Onlar gizli olduğundan, açıqlaya bilmirəm" - o bildirib.

**Ter-Petrosyanın sonrakı dedikləri isə ciddi etirafdır:** "Ermənistanın da, Qarabağın da əhalisi bu 20 ildə ciddi beyin travması alıb. Müntəzəm şəkildə qələbədən danışmaqla, əraziləri geri verməyəcəklərini deməklə, "dənizdən dənizə Ermənistan" yaratmaq xülyaları ilə, qalib ordudan, 1994-cü ilin zəfərlərindən bəhs etməklə, millətin məsələlərə açıq gözlə baxmaq hissini yox ediblər. Gəlin Qarabağ məsələsinə daha konkret, daha yaxından baxaq. Ərazilərin geri qaytarılması məsələsinə bir az açıq gözlə baxaq. Ən ağrılı problem budur. Xalqı çaşdıran politoloqlar, siyasətşünaslar belə bir fikir formalaşdırmağı sevir: kim ərazilərin geri qaytarılmasından danışırsa, o xaindir, qorxaqdır, türkdür, nə bilim nədir..." **Daha sonra isə S.Sərkisyan hakimiyyətini düşünməyə çağırıb:** "Hər kəs anlamalıdır ki, biz beynəlxalq ailənin üzvüyük və bu ailənin qaydalarına əməl etməyə borcluyuq. Biz BMT və ATƏT-in sərhədlərin toxunulmazlığı, ərazi bütövlüyü ilə bağlı prinsiplərini qəbul etdiyimizə dair imzalar atmışıq. Bu sənədlər vasitəsilə sərhədlərin güc tətbiqi ilə dəyişdirilməsinin yolverilməzliyini qəbul etmişik. Demək, buna əməl etməliyik. Bu prinsipləri biz də qəbul etmişik, Azərbaycan da. Dünya isə bu prinsiplərin pozulması ilə bağlı heç bir bəhanəni tanımır".

**Ter-Petrosyan faktiki olaraq BMT TŞ-nin qətnamələrini dərhal yerinə yetirməyə çağırıb. Deyib ki, biz Qarabağın nəzarəti altında olan Azərbaycan ərazilərini "tarixi Ermənistan" da, azad olunmuş ərazilər də adlandıra bilərik, oraya müqəddəs ərazilər və sair də deyə bilərik:** "Amma beynəlxalq hüquqda belə kateqoriyalar yoxdur və ola da bilməz. Bunlar xülyadır". **"Bəs həmin ərazilər sizin vaxtınızda azad edilmədimi" sualına Ter-Petrosyanın cavabı belə olub:** "Biz "azad edildi" deyə bilərik. Beynəlxalq birlik isə başqa cür adlandırır: "işğal!"" Jurnalistin "belə çıxır ki, oranı siz işğal etmisiniz" sualına eks-prezident səmimi şəkildə "beynəlxalq birliyə görə, bəli!" cavabını verib.

**Ətraf ərazilərin qaytarılmasının qarşılığında Ermənistanın nə qazanacağına gəldikdə, eks-prezident iddia edib ki, ötən illər ərzində Azərbaycan bir sıra ciddi güzəştlərə gedib.** "Biz beynəlxalq qurumların - BMT-nin, ATƏT-in Qarabağın öz müqəddəratını təyin etməsi haqqını qəbul etməsinə nail olmuşuq. Bundan böyük nə güzəşt gözləyirik?", - deyə sabiq prezident bildirib.

**Keçmiş prezidentin dediklərini şərh edən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov bildirdi ki, əslində Ter-Petrosyan bəzi məsələlərdə cığallıq edir:** "Öz müqəddəratını təyinetmə məsələsi əslində Lissabon sammitindən qalmadır, orada qəbul olunan yekun sənəddə Azərbaycanın daxilində öz müqəddəratını təyinetmədən söhbət gedirdi". **Eks-nazir bildirdi ki, Ermənistanın ətraf rayonların qaytarması ilə bağlı əsas məsələ açıq qalır:** "Bu da ondan ibarətdir ki, ətraf ərazilərin işğaldan azad edilməsinin əvəzində Ermənistan nə qazanacaq? Yaxud Dağlıq Qarabağ Azərbaycanın daxilində olacaq, yoxsa ayrı tələb qoyulur? Bu mənada Ter-Petrosyan da cığallıq edir və hər şeyi açıqlamır".

**Ancaq T.Zülfüqarov əlavə etdi ki, keçmiş prezidentin mövqeyi xələfindən kəskin fərqlənir:** "Ter-Petrosyan deyir "sərhəd" Dağlıq Qarabağı ətraf ərazilərdən ayıran xətdir. Yəni onun fikrincə, "sərhəd" keçmiş muxtar vilayətin ərazisinin ətrafından keçir. Sərkisyan isə deyir ki, yox, referendum keçirdik, Dağlıq Qarabağın "sərhəd"i indiki təmas xəttidir".

**Qeyd edək ki, rəsmi Bakı Ter-Petrosyanın iddialarına münasibət bildirmir. XİN-də hesab edirlər ki, hər bir fərd kimi, rəsmi statusu olmayan keçmiş prezidentin dediklərinə də reaksiya verməyə ehtiyac yoxdur. T.Zülfüqarov isə hesab edir ki, Ter-Petrosyanın dediklərinə rəsmi münasibət bildirilməlidir:** "Ter-Petrosyan gizli razılaşmaların olduğunu iddia edirsə, buna aydınlıq gətirilməlidir. Yalnız Şuşaya bayraq sancacağımızı deməklə iş bitmir".

❑ Elşad PAŞASOY

**Gələn ay - mayın 12-də atəşkəslə bağlı Bişkek protokolunun imzalanmasının növbəti - 23-cü ildönümü tamam olacaq. Təəssüflər olsun ki, ötən böyük zaman kəsiyində ATƏT-in Minsk Qrupu həmsədrləri problemin dinc həlli yönündə heç bir ciddi uğura nail ola bilmədilər. Bu müddətdə neçə-neçə yeni həmsədr gəlib-getdi, lakin “Qarabağ yükü” hələ də köhnə yerində qalır, üstəlik, yeni müharibə ehtimalı 23 il öncəki ilə müqayisədə hazırda daha böyükdür. Çünki istənilən sülhün alternativi müharibədir.**



# Bakıdan 3 paytaxta Qarabağ ittihamı: “Nə qədər gözləmək olar?..”

23 ildə konfliktin həllində dönüşə nail olmayan Minsk Qrupu həmsədrləri sərt tənqidə tuş gəldilər; **rusiyalı tanınmış politoloq:** “Nəyə görə pul alırsınız, yerinizi boşaldın”; **ekspert:** “Rusiya Ermənistanı müdafiə eləməkdən sonadək yayınmağa çalışacaq...”

Qarabağda sülh gecikir. Şəksiz ki, ən əvvəl vasitəçilik institutunun dişsiz fəaliyyəti nəticəsində gecikir. Bunun - yəni nəticəsizliyin əsas səbəbi də əslində qaranlıq deyil: həmsədrlər hələ də işğalçı ilə işğala məruz qalan tərəfi öz adı ilə adlandırmağa cürət eləmir, münaqişə tərəflərinə, demək olar, eyni gözlə baxırlar. Bu da əlbəttə ki, təcavüzkar Ermənistanın özünü daha arxayın və cəzasız hiss etməsinə şərait yaradır, BMT başda olmaqla, nüfuzlu beynəlxalq təşkilatların Qarabağa dair qəbul etdikləri qərar-qətnamələri arxa plana sürüşdürür, yekun etibarilə sülh anlaşmasını əlçatmaz edir.

*****

Bəs belə “pat vəziyyəti” daha neçə il sürə bilər? Vasitəçilər nəhayət, məsuliyyət hiss edib hərəkətə keçəcəkmi, yoxsa mövcud status-kvo davam edəcək?

“Əgər ATƏT-in Minsk Qrupu Dağlıq Qarabağa dair nə isə edə bilmirsə, o zaman onlar, ümumiyyətlə, nə işlə məşğuldurlar? Öz yerlərinizi boşaldın, biz daha gözləməyəcəyik”. Musavat.com-un məlumatına görə, barədə Bakıdakı mətbuat konfransında tanınmış rusiyalı ekspert Qriqori Trofimçuk deyib.




“Minsk Qrupunun faydalı iş əmsalını müəyyən eləmək çox sadədir. Qrupun fəaliyyəti dövründə "aprel müharibəsi" baş veribsə, bu yaxınlarda isə təmas xəttində fevral kəskinləşməsi yaşanıbsa, bu, o deməkdir ki, situasiyaya rəsmi nəzarət üçün təyin edilmiş strukturlar bacarıqsızdır", - deyə politoloq qeyd edib.

**Onun sözlərinə görə, vasitəçilər nə Vyana sammitindəki plan üzrə, nə də Sankt-Peterburqda analoji qərarlar üzrə öhdəliklərini yerinə yetirməyiblər.** “Mənə təəccüblü gəlir ki, bu adamlar (həmsədrlər-red.) hələ də işləyir və buna görə pul alırlar. Bu vaxt isə yeni-yeni qurbanlar peyda olur. Faktların konstatasiyası və formal bəyanatlarla isə burda artıq keçinmək olmaz. Minsk Qrupunun öz məsuliyyət məsələsinə daha ciddi yanaşmasının vaxtı çatıb. Bu kollektivin faydalı iş əmsalı sıfırdır - əgər onun münaqişə zonasında az qala hər gün qeydə alınan qurbanlara görə böyük məsuliyyəti haqda danışmasaq”, - deyə politoloq əlavə edib.

*****

**Digər rusiyalı tanınmış ekspert, Rusiya XİN yanında Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun ekspert Aleksey Fanenko hesab edir ki, Dağlıq Qarabağ məsələsində heç də hər şey birmənalı deyil:** “Ermənistan Minsk Qrupu çərçivəsində iki həmsədr dövlətlə - ABŞ və xüsusən də Fransa ilə əməkdaşlıq edir. Rusiya isə öz tərəfindən həmişə Azərbaycanla Ermənistan arasında dialoq formatını saxlamağa çalışıb. Danışıqlar prosesi hər dəfə böhrana girəndə Moskva körpülər yaratmağa səy edib”.

**Politoloq bu arada 2008-ci ilin Mayendorf bəyannaməsini və 2011-ci ildə Kazanda Rusiya, Azərbaycan və Ermənistan prezidentləri arasında keçirilmiş sammiti yada salır:** “Maraqlı bir epizod 2012-ci ilin yayında, Qarabağdakı qarşı duran qüvvələrin təmas xəttində baş vermiş kəskinləşmə zamanı yaşanıb. O zaman İrəvan, mənə məlum olan qədər, Moskvadan Bakının hərəkətinin sərt şəkildə qınanmasını gözləyirdi. Ancaq Moskva yumşaq şəkildə bu addımdan yayındı. Əlbəttə ki, Rusiya KTMT öhdəlikləri çərçivəsində Ermənistanı müdafiə edəcək. Ancaq 2012-ci ilin təcrübəsi göstərdi ki, Moskva əlindən gələni edəcək ki, belə seçimdən yayınsın”.

Ekspertin sözlərinə görə, Rusiyanın qarşısında iki hədəf durur: “Minimum hədəf - sübut eləmək ki, Qarabağa dair dinc dialoq prosesi hələ canlıdır. Daha mürəkkəbi isə ikinci - maksimum hədəflə bağlıdır. Sual ortaya çıxır. Rusiya münaqişə tərəflərinə hansı pozitiv gündəlik təklif edə bilər? Ermənistan radikal ssenari variantında KTMT-nin avtomatik onu dəstəkləyəcəyinə şübhə edir. Azərbaycanda isə Qarabağ ətrafında lokal və ya genişmiqyaslı toqquşma halında bu təşkilatın mövqeyi ilə bağlı əminlik yoxdur. Məhdud güc nümayişi problem ətrafında siyasi prosesə transformasiya olunub. Bundan artığına getməyə isə tərəflər hazır deyil”, - deyə sonda politoloq əlavə edib.

*****

Qarabağ nizamlanması yönündə, belədə, nə bütövlükdə həmsədrlər səviyyəsində, nə də konkret olaraq, Rusiya tərəfindən ciddi təşəbbüskarlıq yoxdur. “Nə hərb, nə də sülh” durumu isə daha çox barıt qoxusu verir, nəinki sülh. Əsas sualı da budur ki, sükutu kim pozacaq - Azərbaycan əsgəri, yoxsa vasitəçilər?..

❑ **Siyasət şöbəsi**

# Nazarbayevin Bakı səfəri düşməni rahatsız edib

## Azərbaycanın sadiq müttəfiqi Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı prosesə qoşula bilərmi? Ekspertlərdən maraqlı açıqlamalar

**“Qazaxıstanın Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesinə qoşulması hesab etmirəm ki, indiki situasiyada nəyisə dəyişə bilər”. Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov bu fikri Qazaxıstan prezidenti Nursultan Nazarbayevin Azərbaycan paytaxtına səfəri, türkdilli ölkə başçısının Qarabağ prosesində hansısa rol oynaya biləcəyi ehtimallarını “Yeni Müsavat”a şərh edərkən söylədi.**




Bununla belə, o qeyd etdi ki, Qazaxıstanın Azərbaycana dəstəyi olduqca vacibdir: “Bu dəstək KTMT-də və Avrasiya Birliyində mövcuddur. Türkdilli olmağını bir kənara qoyaq, ümumilikdə Qazaxıstan çox vacib müttəfiqdir”.

Qeyd edək ki, 90-cı illərin əvvəllərində, hələ ATƏT-in Minsk Qrupu formalaşdırılmamışdan öncə Qazaxıstan Qarabağ məsələsinin sülh yolu ilə həlli istiqamətində bir neçə dəfə təşəbbüs göstərib. Hətta 1991-ci ilin noyabrında Bakıda aparılan Qarabağ müzakirələrindən sonra Xankəndi şəhərinə uçarkən erməni terrorunun məhv etdiyi yüksək çinlilər arasında Qazaxıstan daxili işlər nazirinin müavini Sanlal Serikov da var idi. Sabiq nazir də həmin dövrü yaxşı xatırladığını dedi. Bildirdi ki, sonrakı proseslərdə də danışıqlarda Qazaxıstan iştirak edib: “Sabiq xarici işlər naziri Tofiq Qasımov 2-3 dəfə Qazaxıstana səfər etmişdi, həmçinin sonra məni mütəxəssis kimi göndərdilər danışıqlara. O zaman Nazarbayev hamımızı qəbul etdi. Astana o vaxt kömək etmək istəyirdi. Raffi Ovanisyan o vaxt xarici işlər naziri idi, bir-iki raund danışıqlar oldu, amma nəticəsiz başa çatdı”.

**Qazaxıstanın həmsədrliyə gətirilməsini çətin və faydasız sayan T.Zülfüqarov hesab edir ki, Astananın Qarabağ məsələsinin həllinə kənardan dəstəyi daha yaxşıdır, nəinki birbaşa:** “Əsas problem budur ki, regionda nüfuzu olan vasitəçilər - ABŞ və Rusiya Ermənistana təsir göstərmir. İşğala görə Ermənistana sanksiya tətbiq olunmalıdır. İşğalçıya qarşı BMT tərəfindən hansısa sanksiyalar qəbul olunsa, bu, Ermənistana ciddi zərbə olar. Yaxud indiki halda Qazaxıstan Ermənistandan tələb edə bilər ki, torpaqları azad etsin və ya Türkiyə kimi işğal bitənə kimi əlaqələrini kəsə bilər. Bu, daha effektli olar. Ümumiyyətlə, ümid Azərbaycan əsgərinə qalıb”.

**Bu arada Qazaxıstan prezidentinin Azərbaycana səfəri Ermənistanda ciddi təşvişə səbəb olub. Düşmən ölkədəki Iragir.am saytı “İlham Əliyevlə Nazarbayev Ermənistan üçün yeni sürpriz hazırlayır” deyə yazıb** *(Publika.az)* “Ötən il Belarus prezidenti Aleksandr Lukaşenko Azərbaycana səfər etdi. Bunun ardınca Qarabağa səfər etmiş Lapşin Bakıya təhvil verildi. Nazarbayevin Bakı səfərindən sonra da Ermənistan üçün yeni sürprizlərin olması mümkündür. Qazaxıstan prezidenti Avrasiya İqtisadi İttifaqının Astana sammitində İlham Əliyevin məktubunu oxuyaraq, Sərkisyanı pis vəziyyətə salmışdı. İndi əsas sual belədir: Əliyev və Nazarbayev bu dəfə Ermənistan üçün hansı sürprizi hazırlayır?”, - deyə sayt qeyd edib.

**Sayt Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) ötən ilin 14 oktyabrında İrəvanda keçirilən iclasını xatırladaraq qeyd edir ki, Nazarbayev həmin vaxt Ermənistana gəlməkdən imtina edib:** “Buna səbəb kimi onun xəstəliyi əsas gətirildi. Nazarbayev gəlmədiyi üçün iclasda KTMT-yə erməni baş katibin təyin edilməsi təxirə salındı. KTMT-yə erməni baş katibin təyinatı ötən ilin dekabrında keçirilən iclasda olacaqdı. Lakin Lukaşenko gəlmədiyi üçün məsələ yenə təxirə düşdü. İndi gözlənilir ki, erməni baş katib KTMT-nin apreldə keçiriləcək sammitində təyin oluna bilər. Mümkündür ki, bu təyinatın olmaması üçün Əliyevlə Nazarbayevin hansısa planı var”.

**“Əsas məsələ ondan ibarətdir ki, Qazaxıstan KTMT-nin üzvüdür və demək olar ki, bu üzvlük çərçivəsində Azərbaycanın mövqeyini, ərazi bütövlüyünü və suverenliyini daim dəstəkləyir”. Politoloq Arzu Nağıyev ermənilərin narahatlığından bəhs edərkən belə dedi. Qeyd etdi ki, Sərkisyanın mövqeyinə Nazarbayevin tutarlı reaksiyalarının dəfələrlə şahidi olmuşuq:** “Eyni zamanda Suriya məsələsində Astana bir müstəvi kimi seçilib və artıq dünya tərəfindən terrorla mübarizədə iştirak edən sülhsevər bir dövlət kimi tanınır. Məhz bütün bu məsələlərdən istifadə etməklə Ermənistana təzyiq eləmək, Rusiya ilə münaqişənin həllini reallaşdırmaq üçün Qazaxıstanın Azərbaycana münasibəti mühüm əhəmiyyət kəsb edir. Qazaxıstanın yenidən bu prosesə qoşulması mühüm əhəmiyyət kəsb edir. Bundan başqa, birgə iqtisadi layihələrin də əhəmiyyəti danılmazdır”.

**Nəzəri cəhətdən belə hesab edək ki, Astana həmsədr olmaq istəyir. Belə olan halda, Türkiyəni prosesə buraxmayan Ermənistan digər türk dövləti Qazaxıstanın meydanda olmasına razılıq verərmi? A.Nağıyev:** “Ermənistan buna məcbur edilə bilər. Rusiya təkid etsə, ayrı çıxış yolu yoxdur. Ortada həm də KTMT var. Türkiyə ilə Qazaxıstan isə bəzi baxışlarına görə fərqlənirlər, buna görə də Qazaxıstan variantı baş tuta bilər”.

**“Qazaxıstanın və ya başqa ölkənin vasitəçiliyinə ehtiyac yoxdur. 3 böyük dövlət vasitəçidir və tərəflər əlavə vasitəçi istəmir”. Bu fikirlər isə politoloq Şahin Cəfərliyə məxsusdur.**

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 69 (6683) 5 aprel 2017

**Mən bərk solaxayam. Hətta aparıcı ayaq pəncəm də solaxaydı. Daim məni sol tərəfə dartıb aparır. Solaxay taleyim, həmişə diqqət mərkəzimdə olub. Öz solaxaylığımı anlamaq, onu tədqiq etmək naminə min cür əzab-əziyyətlə üzləşmişəm indiyəcən. Gecəmi gündüzümə qatmışam. Bu mövzuda hətta avtobioqrafik "Solaxay" romanım da mövcuddu, biləsiz. Dünya millətlərinin uzun siyahısında "solaxay" mövzusuna biz türklərdən sonra ən yaxın millət, məncə, ruslardı.**

# Quranı ruscaya çevirən məşhur rus alim qadın "Yeni Müsavat"a danışdı

## Valeriya Poroxova: "Bu tərcümədən sonra tale üzümə güldü"

Bəli, məhz sarışın, qaba, inadkar, tərs ruslar, vəssalam. Rusların bu təbii, qədim solaxaylığını ilk dəfə dərindən duyub tədqiq edən kəs yazıçı Aleksandr Leskovdu. Müəllifin "Solaxay" romanında süjet belədir: ingilislər rus çarı Aleksandra cıqqılı mexanik dəmir birə bağışlamaqla sonuncunun heysiyyətinə toxunublar. İndi bu ingilis hədiyyəsinə cavab vermək, birəni nallamaq lazımdır. Nəhayətsiz Rusiya imperiyası ərazisində belə bir incə mütəxəssisi tapmaq əvvəlcə çətin görünür rus imperatoru 2-ci Nikolaya. Sonra belə bir usta, nəhayət, tapılır. Bəlli olur ki, o da mənim kimi bərk solaxaydı.

***

İngilislərin solaxaylığa, sol tərəfə nifrəti artıq sağlam məntiq çərçivələrini çoxdan vurub aşıb, vallah. Bildiyiniz kimi, böyük Britaniyada, avtomobil sükanı, digər ölkələrdəki kimi, solda deyil, məhz sağda yerləşir. Yol hərəkət trayektoriyası da burda başqa yerlərdəki kimi sol tərəfli deyil, sağ tərəflidir nədənsə.

Ruslar, bu yekəbaş antisol britaniyalıları yerində oturtmaq üçün nə edirlər? Solaxay ustaya müraciət edirlər. Nəticədə layiqli cavab qaytara bilirlər dumanlı Temza sahillərinə.

***

Qısası, həmin bu "solaxay" mövzusu Kreml, rus ruhu ilə tanışlığıma müəyyən bir çığırdı. Bu cığırla sola getsəm, mütləq lazımi ünvanlara vara biləcəm. Həmin cığırda rastlaşacağım baş solaxay isə bir gün məhz Vladimir Vladimiroviç Putin olacaq bəlkə də. Hələlik onunla görüşməsəm də nəfəsini, hənirini hiss edirəm öz qarşımda. Ondan isti yox...soyuq, amansız şaxta vurur sifətimə. Putinin bu soyuq "sol" hənirini, nəfəsini Moskvada ikən ilk dəfə bilirsizmi hansı ünvanda hiss etdim?

Həəəə...indi mən bu görüşü necə təsvir edim ki, nəfəsiniz daralmasın, yazdıqlarıma inanasınız. Deməzsiz "ay kişi, belə olmaz, ağlını başına yığ...məntiq açarını itirmə...belə söhbətlər çox aparma orda-burda. Camaatı qorxutma".

***

Telefonuma qəfil müəmmalı bir zəng gəldi. Naməlum anonim ünvandan səslənən bu ardıcıl, israrlı zənglərə, nəhayət, cavab vermək qərarına gələrək telefonumun "cavab" düyməsini basdım:

"Salam. "Krapotkina" metro stansiyasından çıxıb üzü Xilasedici İsa Kilsəsinə tərəf gedin. İzi itirməyin. Orda bir başqa işarəni görərək durub gələcəksiz lazımi ünvana. Sol cinahınıza baxın həmişə. İzi itirməzsiz".



Moskvanın həzin yaz mənzərəsi elə bil yenidən güclənib artdı gözlərimdə. Öz dar çərçivəsini genişləndirdi. Deyilənlərə əməl edərək gəlib çıxdım Moskvanın ən kübar, qapalı küçələrindən birinə. Kağız parçası üzərində göstərilən dəqiq ünvanı təyin edib, nəhayət, sakitləşdim. Bir sağıma boylandım, casus filmlərində olduğu kimi, bir soluma. Arxadan mənə yaxınlaşan sevgi cütlüyünə, qəfil geri qanrılaraq bir an öz tərs baxışlarımı sancdım. Nəhayət, ürəklənib, zəng düyməsinə sol adsız barmağımı basdım:

"Buyurun. Bayaqdan bəri elə yolunuzu gözləyirik. Süfrə hazırdı. Çayı elə indicə qaz piltəsinin üzərindən götürdük".

Dəmir darvaza tarappıltıynan açıldı öz-özünə. Mərmər pillələrlə yuxarı qalxdım. İçəri keçincə dəhlizdə məni gör bir kim qarşıladı?

Desəm inanmazsınız. Bu...bu...bu kəs bilirsizmi kim idi, hə? Bilirsiz kim?

**Paytaxt Moskvanın, Rusiyanın baş SOLAXAYI...**

**DOSYE:** Valeriya (İman) Mixaylovna Poroxova - ingiliscədən ruscaya peşəkar tərcüməçi-sinxronist, müsəlman ictimai xadimi. Qurani-Kərimi ingiliscədən ruscaya tərcümə edən bu qadın tezliklə təkcə Rusiyada deyil, bütün dünyada şan-şöhrət qazanıb. 14 may 1940-cı ildə zadəgan rus ailəsində dünyaya göz açıb. 30-cu il repressiyalarında bir çox yaxın-əzizlərini itirən bu qızcığaz poliqlot kimi tanınır Moskvada. İlk qaranquşlardandı - Moriz Torez adına Moskva Xarici Dillər İnstitutunda ilk olaraq öz diplom işini ingiliscə müdafiə edib.



**Bir başqa peşəsi**

Atom mühərrikləri üzrə nadir mütəxəssislərdən sayılır. Uzun müddət, tam 18 il Moskvanın məşhur MİFİ İnstitutunda bu sahədən dərs verib. Sonra qərara gəlib ki, əsl atom mühərriki məhz Qurani-Kərimdi. Sol qolunu çırmalayaraq girişib Quranın tərcüməsinə.

**Dini mənsubiyyəti**

1981-ci ildə pravoslav dinini, 1985-ci ildə müsəlmanlığı, "İman" adını qəbul edib.

**Siyasi mənsubiyyəti**

Rusiya Avrasya Partiyası siyasi şurasının sədr müavinidir.

**Ailəsi**

1975-ci ildə Suriya vətəndaşı Məhəmməd Səid əl-Roşdə ərə gedib. Uzun zaman İslam dünyasının mərkəzi Dəməşqdə yaşayıb.

**Novatorluğu**

Quranı o, xüsusi bir ahəngdə, şeir ölçülərində ruscaya tərcümə edib.

**Sirri**

Hələ uşaq ikən bədəni ciddi zədə alıb. Sağ əli aldığı iflic nəticəsində işləmir. Sol əliylə görür bütün işlərini. Quranı da, Allahın işidi, məhz sol əliylə götürüb ruscaya çevirib.

**Övladları**

Oğlanlarından biri məşhur "Russia Today" telekanalının baş redaktorudu. Anasının tərcümə ənənələrini davam etdirir orda.

**Mistikası**

Valeriya Poroxovanın həyat marşrutunu indi Rusiya geopolitikası tam təkrarlayır. Poroxovadan sonra Rusiya Kosmik Hava Qüvvələri Suriyaya daxil olaraq burdakı İSİD-çilərin bir növ anasını ağladıb.

***

**Ev sahibəsi ilə sol əlli salamlaşıb görüşməyimizin artıq özü qeyri-adi möcüzə idi mənim üçün. Zarafat deyil, Rusiya ilə Azərbaycanın iki baş solaxayı bir yerdə, bir ünvanda, bir mənzildə görüşmüşdülər nəhayət ki. Öncə evi haqda danışır:**

- Gördüyünüz mənzil, Səudiyyə Hökumətinin 4 milyon beş yüz min dollar civarında hədiyyəsidir mənə. Əvvəllər Moskvanın Mir prospektindəki darısqal iki otaqlı mənzildə yaşayırdım öz suriyalı ərimlə. Quranın tərcüməsindən sonra tale üzümüzə gülməyə başladı. Sonra hədiyyələr sel olub başıma töküldü.

Qısa pauzadan sonra o, astaca pıçıldadı:

- Keçək, bax, bu otağa, digər hədiyyələrimi göstərim sizə.

Hə...bu hədiyyə evin ayrıca, xüsusi "hədiyyə otağı" da varmış, sən demə. Nələrə rastlamadım mən bu sehrli "Simsim mağarasında". Dünya masonlarının hədiyyələri burda bir küncdə düzülmüşdü, Roma papalarının ağır, səxavətli ərməğanları bir başqa küncdə. İran prezidenti Hatəminin qızıl qələmlə yazılmış xüsusi məktubları... Britaniya Lordlar Palatasının yazdığı təşəkkürnamə...

- Nursultan Nazarbayev, bir dəfə məndən özü xahiş etdi ki, Quranı ona hədiyyə edim. Üstünü yazım. Özünüz düşünün, hansı vəziyyətdə idim mən həmin anda. Bir tərəfdə Nazarbayev şəxsiyyəti, etimadı, digər tərəfdə küfrə, günaha batmaq təhlükəsi. Allahın kitabı üzərində öz adımı yaza bilməzdim axı... İlk dəfə sol əlim barədə dərindən o zaman düşündüm. Quranı mən axı ancaq soləlli tərcümə etmişəm ruscaya.

***- Niyə məhz sol əlli axı?***

Sualım məndən ixtiyarsız dilimdən ayrıldı.

***- Niyə?...Həəəə... bax bu böyük sirdi...***

- Qoy bu "Simsim mağarasının" da sirri mənimçün açılsın - deyib dodaqlarımı kip yumdum.

Allahın öz əmridi bu. Belə lazımmış, görünür. Məsləhət beləymiş bəlkə.

Ətrafımdakı qır-qızıla, antik əşyalara bir müddət heyranlıq hisləri ilə baxdım. Əsl möcüzə isə Poroxavanın sol əliydi. Bu əl işıqlı və nurlu idi. Titrək və həyəcanlı idi azca. Qəfil bu əl, ilan kimi qıvrılıb yenə sol əlimə düyünləndi. Beləcə, bir müddət sükuta daldıq bu qədim, kübar Moskva mənzilində.

Az sonra xidmətçi qadın içəri daxil olub bizləri çay süfrəsi arxasında əyləşdirdi.

***

- Başqa əlifbalar haqda dəqiq heç nə deyə bilmərəm. Ancaq ərəb əlifbası, qəti fikrimdi, məhz solaxayların əlifbasıdır məncə. Hərəkət dinamikası, trayektoriyası da latın əlifbasında olduğu kimi deyil burda. Hərəkət burda sağdan soladır, nəinki soldan sağa. Nərd oyununda da belədir. Burda da oyunun coğrafiyası sol cinahımıza tərəfdir. Daha bir vacib cəhət də var bu nərd oyununda. Xanaların sayı burda altıdır...

***- Demək istəyirsiz...***

- Bəli, demək istəyirəm ki, bu oyun beş barmaqlı müasir insanın oyunu deyil, altıbarmaqlı yadplanetlilərin oyunudur.

***- Bəs Kəbədəki Qara daş ətrafındakı bitib-tükənməyən hərəkət barədə nə deyə bilərsiz, Valeriya?***

Sualım, deyəsən, ev sahibəsinin ürəyincə oldu. Sanki çoxdan gözləyirdi bu sualı məndən - bəlkə də qapıdan içəri girdiyim andan etibarən. Sualı eşidincə azca duruxsundum. Necə deyərlər, oxlov uddum sanki.

Adına "təvab" deyilən, əsrlərin dərinliyindən qopan bu əbədi...bəli, məhz əbədi sol hərəkət gör neçə min illərdən bəri davam edib bitib tükənmək nədi bilmir. Bu, əsl sol hərəkətdir.

***

Mövzunu qənimət bilib onu bir başqa, daha müasir istiqamətə yönləndirirəm:

***- Putin də solaxaydır, Valeriya xanım. Quranı, ərəb əlifbasını bəlkə buna görə çox sevir o?***

- Razıyam. Mən də onu Leskovun müasir Solaxay qəhrəmanı sayıram. İngilis lordları Quranı tərcümə etdilər öz dillərinə. Quranın ingiliscə 100-dən çox nümunəsi mövcuddu. Rusca cəmi doqquz Quran tərcüməsi var. Doqquzuncusu mənimkidi. İngiliscədən etmişəm bu tərcüməni. Yəni mən də, müəyyən qədər anqlosaksların hədiyyəsini bir növ nallamağı bacarmış Leskov solaxaylarındanam.

***- Siz İslamı qəbul edibsiz?***

- Biz rusların İslama aludəliyi qədim tarixə malikdi. Bilirsiz, Lev Tolstoy Sinodun təklifi ilə kilsədən qovulmuşdu. Vəfat etdiyi zaman keşişlər onu basdırmaqdan imtina etmişdilər. Nəticədə dəfn-kəfn İslam qanunları əsasında baş tutdu.

***- Yəni...***

Valeriyanın alovlu baxışlarından od püskürdü bu zaman sanki. Üzünə xoş təbəssüm kölgələri qondu.

- Yəni biz rusların darmacalda müraciət etdiyi bir müəmmalı sol ünvan var. Bu, İslamdı. Müsəlman dinidi. Hesab edirəm ki, metafizika xalqları birləşdirir. Fizika isə ayırır. Əli aşiqlərinin İmam Mehdi sevdası, yəhudilərin Moşiaxı, xaçpərəstlərin Xilaskarı, buddistlərin Budda Maytreyası, zərdüştlərin Sayoşant misteriyası əslində eynidir. Baxın, bir tərcüməmdən ilhamlanmış yəhudilər mənə sifariş göndəriblər. İstəyirlər ki, mən müqəddəs Toranı ruscaya tərcümə edim.

***- Demək, metafizikada, aləmi-misalda yəhudi ilə müsəlman, xaçpərəst, buddist eynidi, fizikada isə bam-başqa, eləmi, Valeriya?***

- Tamamilə doğrudur. Ancaq mən onları birləşdirmək istəyirəm. Quranın tərcüməsindən sonra müqəddəs Toranı ruscaya çevirəcəm.

Bu vaxt qarşımda Quranın ermənicəyə də tərcüməsini görüb, azca şaşırdım. Kitabı qorxa-qorxa, yavaşcana araladım. Tərcüməçi Stepanos Laxesi, hələ 1680-ci ildə bu tərcüməni bitiribmiş. Bir müddət əlyazma şəklində qalan bu əsər sonralar, 1862-ci ildə Tiflisdə nəşr edilib. Ermənilər çox az qiraət edirlər indi bax bu tərcüməni.

Məncə, Azərbaycan dövləti həmin tərcüməni yenidən ermənicə çap etməli, onu erməni qonaqlarımıza hədiyyə etməlidir.

Bu sözləri deməsəm də Valeriya sanki onları eşitdi. Başıyla "hə" işarəsi ötürdü lal ətrafına.

Valeriyadan əxz etdiyim ən dəyərli təklif məhz bu idi elə bil.

Onu da indi mən Bakıya hədiyyə apararam.

❑ **Həmid HERİSÇİ**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistandakı seçkilərin əsas qalibi: Rusiya...

## Kreml işğalçı ölkədə hansı parlamenti istəyirdisə, onu da aldı; Moskva bunu necə edə bilib - rusiyalı analitikin maraqlı şərhi var; Qarabağda bundan sonrakı hərbi toqquşmaların məsuliyyəti bütünlüklə "seçki qalibləri"nin üzərində qalır...

**İşğalçı Ermənistanda kütləvi saxtakarlıqlarla keçən parlament seçkiləri ölkə parlamentindəki siyasi qüvvələr nisbətinə ciddi dəyişikliyə gətirmədi. Prezident Serj Sərkisyanın "müharibə partiyası" və daşnaklar yenə çoxluqda qaldılar. 5%-lik barajı aşmış digər iki siyasi qüvvə də sülh carçıları sayılmaz.**



Oleq Kuznetsov

Bu, o deməkdir ki, qarşıdakı illərdə də Dağlıq Qarabağ məsələsində Ermənistandan ifrat radikalların səsi gur gələcək. Azərbaycanla təcavüzkar ölkə arasında böyük sülh anlaşması əlçatmaz olaraq qalacaq. Yeni müharibə riski artmaqda davam edəcək.

Bütün bunlar isə erməni xalqına heç şübhəsiz, yeni-yeni fəlakətlər gətirəcək, onun sosial-iqtisadi durumu daha da ağırlaşacaq, cəbhədən daha çox erməni hərbçisinin cəsədi gələcək. Kəsəsi, seçkinin "nəticələri"ni erməni xalqı tezliklə öz üzərində hiss edəcək. Bu barədə artıq tanınmış erməni siyasi xadimləri də xəbərdarlıq etməyə başlayıblar.

*****

"Bizə onu gözləmək qalır ki, Ermənistan Respublikaçılar Partiyası, "Çiçəklənən Ermənistan", "Daşnaksütyun" partiyası və "Çıxış" bloku pələng sıçrayışı ilə Ermənistan iqtisadiyyatını hansı yolla inkişaf etdirəcək, çoxmilyardlı investisiya axını ilə təmin edəcək, erməni ordusunu gücləndirəcək, artan emiqrasiyanı dayandıracaq və ən ciddi məsələni - xalqımızın qarşısında duran Qarabağ münaqişəsini həll edəcək". Musavat.com-un erməni qaynağına istinadən verdiyi xəbərə görə, bunu sabiq prezident Levon Ter-Petrosyan ötən bazar ölkədə keçirilən parlament seçkilərinin ilkin nəticələrini şərh edərkən bildirib.

Keçmiş prezidentin sözlərinə görə, rəhbərlik etdiyi blok seçki prosesində Qarabağ məsələsinin tənzimlənməsi yollarını Ermənistan gündəminin ən aktual məsələsinə çevirməyə nail olub, hətta bunu onun opponentləri də inkar etmir. Eks-prezident qısa müddətdə blok tərəfindən "Sülh, barışıq, mehriban qonşuluq" şüarı ətrafında kütləviliyin təmin olunmasını da xatırladıb və deyib ki, bunun özü də inkişaf idi.

**Onun sözlərinə görə, burada yalnız bir məqsəd olub.** "Ermənistanda və Dağlıq Qarabağda artan kasıblığın və fəlakətin qarşısını almaq. Başqa məqsəd yoxdur. Əgər parlamentdə təmsil olunan qüvvələr bu bəlanın qarşısını Qarabağın varlığı şəraitində, bir qarış torpaq güzəşti olmadan almağa nail olarsa, biz onlara yalnız təşəkkür edəcəyik", - deyə Milli Konqresin lideri qeyd edib.

Ancaq Ter-Petrosyan onu da əlavə edib ki, sülh indi lazımdır, sonrakı fəlakətlərdən və mənasız itkilərdən sonra yox. O, parlamentdəki yerləri bölüşdürən yeni tərkibə də xəbərdarlıq edib. Deyib ki, bundan sonra axan hər əsgərin qanı, sərhəddəki ölümlərin məsuliyyəti parlamentdə təmsil olunan siyasi qüvvələrin vicdanına yazılacaq.

*****

Ermənistandakı son seçkiləri həm də Rusiyanın qələbəsi saymaq olar. Çünki məhz Rusiyanın xeyir-duası və birbaşa dəstəyi ilə, eyni zamanda nəzarəti altında Ermənistanın növbəti parlamentində də rusiyapərəstlər, qırğılar üstünlük təşkil edəcək. Necə deyərlər, Moskva indi nisbətən rahat nəfəs ala bilər. Seçkilərin nəticələri kontekstində bu və digər məqamlara toxunan rusiyalı tanınmış analitik və tarixçi-alim Oleq Kuznetsovun maraqlı şərhi var.

**Musavat.com-un məlumatına görə, rusdilli vesti.az saytı üçün yazdığı məqalədə ekspert bu xüsusda yazır:** "Serj Sərkisyanın "Qarabağ klanı"nın iqtisadi kursu sayəsində bu gün Rusiyada çörəkpulu qazanan milyona yaxın Ermənistan vətəndaşı var. Onlar əsasən kişilərdir. Erməni qadınları, məlum olduğu kimi, adətən pul qazanmaq naminə fahişəlik eləmək üçün Yaxın Şərq ölkələrinə gedirlər. İlk baxışda bu adamlar indiki rejimin qatı əleyhdarları olmalı və müxalifətə səs verməli idilər. Ancaq bu, yalnız nəzəri cəhətdən belədir. Praktikada isə Rusiyadakı hər bir erməni könüllü gəlməsi Dağlıq Qarabağdakı qanunsuz hərbi birləşmələrin keçmiş səhra komandirlərinin Ermənistanda qurduqları xuntanın sadiq və təməl kərpicləridir".

**Tarixçi analitik fikrini belə əsaslandırır:** "Çünki onların hər biri daimi və çoxqatlı, ciddi nəzarət altındadır. Bu da onların sərbəst şəkildə öz iradələrini bildirməyə imkan vermir. Söhbət ilk növbədə onları işlə təmin edən ermənidən gedir - hansı iş verənlər ki, korrupsiya telləri ilə Ermənistan və Rusiya hakimiyyətinə bağlıdırlar. Onların öhdəsində gəlmə erməniləri necə səs verməyə məcbur eləmək üçün yetərincə həm maliyyə, həm də güc rıçaqları var. Ermənistanın Rusiyadakı vətəndaşları həmçinin diaspor strukturlarının nəzarətindədir. Bu strukturlar isə bütünlüklə Kremlə və Serj Sərkisyanın simasında rəsmi İrəvana işləyir. Bundan başqa, diaspor strukturları erməni xüsusi xidmətləri vasitəsilə ciddi nəzarətdə saxlanılır - hansılar ki, Rusiya ərazisində, demək olar, açıq fəaliyyət göstərir. Bəzən heç anlamaq olmur ki, Rusiyadakı bu və ya digər erməni ictimai xadimi kimdir - xüsusi xidmət orqanlarının vəzifəli əməkdaşı, onların ideya havadarı və xəbərçisi, yoxsa sadəcə, asan pullar axtarışına çıxmış merkantil birisi. Nəhayət, unutmaq olmaz ki, Rusiyada çalışan hər bir Ermənistan vətəndaşı Rusiya Daxili İşlər Nazirliyində miqrasiya qeydiyyatında durur".

*****

Tanınmış rusiyalı ekspertin şərhindən də göründüyü kimi, əslində Ermənistandakı 2 aprel seçkilərini Rusiya keçirib. Yəni bu seçkilərin əsas qalibi gerçəkdən də Kremlidir. Moskva işğalçı ölkədə hansı parlamenti istəyirdisə, onu da aldı. Belədirsə, bundan sonra Dağlıq Qarabağ münaqişəsi zonasında baş verəcək hadisələrə görə Moskvanın məsuliyyəti də ikiqat artmış olur.

Başqa sözlə, bundan sonra həm müharibə risklərinin böyüməsi və genişmiqyaslı hərbi toqquşmaların baş verməsi, həm də cəbhədən çoxsaylı erməni hərbçilərinin cəsədlərinin gəlməsinə görə məsuliyyət bütünlüklə 2 aprel "seçkiləri"nin "qalibləri"nin vicdanına yazılacaq - Serj Sərkisyan başda olmaqla, "müharibə partiyası" və onun tərəfdarları ilə rəsmi Moskvanın vicdanına.



## "Ermənistan danışıqlardan qaçır" - Məmmədyarov

**"Azərbaycan və Rusiyanın terrorçuluq və mütəşəkkil cinayətkarlıqla mübarizədə birgə əməkdaşlığı regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasına mühüm töhfə verir. Azərbaycan bölgədə gərginliyin azaldılması və mehriban qonşuluq ikliminin yaradılması üçün ciddi səylər göstərir".**

Bu barədə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun iki ölkə arasında diplomatik münasibətlərin 25 illiyi ilə bağlı "Nezavisimaya qazeta"da dərc olunan yazısında deyilir (APA). Nazir daha sonra deyib: "Ölkəmizin ərazisinin Ermənistan tərəfindən işğalı, erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxarılmasına dair BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin yerinə yetirilməməsi regionda sabitliyi pozan və bölgədə, ümumən ATƏT məkanında sülhə təhdid yaradan əsas amildir".

Nazir qeyd edib ki, Azərbaycan münaqişənin danışıqlar yolu ilə beynəlxalq hüquq çərçivəsində həllinin tərəfdarıdır: "Ona görə də biz dünya birliyinin bütün məsuliyyətli üzvləri tərəfindən Azərbaycanın ərazi bütövlüyünün bərpası işində prinsipial mövqe ortaya qoyulmasına ümid edirik. Burada xüsusi rol sözsüz ki, Rusiyaya məxsusdur. Sankt-Peterburqda Azərbaycan prezidenti İlham Əliyev və Ermənistan prezidenti Serj Sərkisyan arasında Rusiya prezidentinin təşəbbüsü ilə keçirilən son danışıqlar erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması məsələsinin öz müsbət həllini tapacağına dair müəyyən ümidlər oyatmışdı. Lakin təəssüf ki, bu görüşdən sonra Ermənistan müxtəlif bəhanələrlə danışıqların davam etdirilməsindən qaçmağa çalışır".

YENİ MÜSAVAT
N 69 (6683) 5 aprel 2017



# Bin Ladeni MKİ-dən öncə ifşa edən camaatımızın şakəri

**Samir SARI**

**Hər dəfə dünyanın harasındasa qalmaqallı terror aktı baş verəndə, istər-istəməz adamın yadına 11 sentyabr terraktları düşür. Yəqin ki, bu sətirləri oxuyanların arasında "11 sentyabr"ın nə demək olduğunu bilməyən yoxdur. Varsa, məşqə geciksələr də, gedib Rəşad Məcidin 47 xarici dilə çevrilmiş "10 sentyabr" hekayəsini oxusunlar - onda biləcəklər.**

Bəli, 2001-ci ilin 11 sentyabr günüydü, oturmuşduq redaksiyada, həmişə olduğu kimi, demokratiyadan, azad seçkilərdən, rejimin çökməsindən, yüksək mənsəbli və pullu məmurların çamadanlarını qablayıb qaçmağa hazırlaşmasından-filandan danışırdıq, qəfildən kimsə hövlnak xəbər verdi ki, bəs ABŞ-da müdhiş terror aktı baş verib, televizorda canlı göstərirlər.

Tez redaktorlar otağındakı televizoru şəbəkəyə qoşduq. Lazımi kanalı tapdıq, gördük, bay, doğrudan da dəhşətli terror aktı baş verib, canlı-canlı göstərirlər.

3-4 dəqiqə keçmədi ki, terrorçuların ələ keçirdiyi təyyarələrdən birinin Nyu-Yorkdakı əkiz qüllələrin ikinci tayına çırpılmasını canlı yayımda gördük. Şərhçi necə həyəcanlandısa, qışqırığı Amerikadan Azərbaycan prospekti 37-yə gəldi: "Oh, may Qad"-zad.

Redaksiyanın analitikləri dərhal, türkün sözü, beyin fırtınası törətməyə başladılar. Əsas sual bu idi: "Bu terakt kimin işi ola bilər"?

Adının çəkilməsini təvazökarlıq səbəbindən istəməyən əməkdaşlarımızdan biri dərhal dedi: "Bin Ladenin işi olacaq".

Bu, o vaxtlar idi ki, Üsəma bin Ladeni geniş ictimaiyyət tanımırdı, ən çoxu hər redaksiyada bir-iki nəfər tanıyırdı - beynəlxalq xəbərlər yazan müxbirlər və politoloqlar.

Onlar deyirdilər ki, bu cür terakt üsulu bin Ladenə məxsusdur. Bundan qabaq o, Keniyanın paytaxtı Nayrobidə və Tanzaniyada yerləşən ABŞ səfirliklərinii ələ keçirilmiş yük avtomobilləri ilə partlatmış, xeyli adamın ölümünə bais olmuşdu.

Həmin dəqiqələrdə ABŞ prezidenti Corc Buş başının qorxusundan hövlnak bir şəkildə qaçıb bunkerə təpilmişdi, MKİ terror aktını kimin təşkil edə biləcəyi üzərində baş sındırırdı, amma Şəhriyar klubuna bitişik binanın 4-cü mərtəbəsində əkiz qülləleri və Pentaqonun binasını təyyarələrlə tarana məruz qoyduran adamın kim olduğunu tapmışdılar. Hamı bin Laden deyirdi, etiraz edən də yox idi. Yalnız Səfər adlı bir dostumuz israr edirdi ki, bin Ladenin bu aktı törətməsinin ciddi səbəbləri var, elə-belə etməz.

Terror aktının üstündən iki saat keçəndən sonra Amerikanın özündə də artıq bin Ladenin adını çəkməyə başladılar. Sonrasını da bilirsiniz, 10 il axtarılandan sonra axır ki, ABŞ bin Ladeni tapdı, vurdu.

Hərçənd hələ də adamla ciddi-ciddi mübahisə edənlər var ki, 11 sentyabr teraktını bin Laden törətməyib, ABŞ özü törədib, məqsədi də filan-filan şeylər olub.

Srağagün Sankt-Peterburqda metroda partlayış olduğu barədə ilk xəbər yayılanda köhnə şakərimiz yenidən baş qaldırdı və ilk olaraq məhz bizimölkədə partlayışın terror aktı olduğu və onu İŞİD-ə bağlı qruplaşmanın törətdiyi bildirildi. Redaksiyalarda bu haqda danışılır, sosial şəbəkələrdə yazılırdı.

Hətta məşhur "özləri partladıb" ifadəsi də tezliklə populyarlaşmağa başladı və dillərə düşdü. Hazırda ölkəmizdə hər iki nəfərdən biri inanır ki, metroda terroru Rusiyanın "feesbe"si təşkil edib. İki nəfərdən o birisi isə İŞİD-i qanlı tutur.

Bütün bunlar göstərir ki, xalqımızın analİtik təfəkkürü yerindədir, dərindir, çoxşaxəlidir, dünyanın harasında nə baş verirsə, qarabağlılar demişkən, vacehinə yetir, qəti qənaətə gəlir, üstəlik, çəkinib-eləmədən bəyan edir.

Hələ bu harasıdır, biz artıq Kremlin atacağı addımları da proqnozlaşdırmağa başlamışıq. Məsələn, Putin bu teraktdan sonra kimləri cəzalandıra, hansı ölkəyə qoşun yeridə, hansı dövləti raketlə vura, daxili siyasətdə ondan necə yararlana bilər, hamısı bizə məlumdur.

Öz analitik beynimizlə, erudisiyimizlə qürur duymamaq mümkün deyil. Bircə minusumuz var ki, bu qədər ciddi analiz qabiliyyətimizlə öz dərdimizə dair dəqiq analiz verə bilmirik, yeddi analizi birdən veririk, hamısı bir-birinə qarışır.

Bircə şeyə şükr edək ki, qalmqallı terror aktlarını törədənlərin içində həmvətənlərimz olmur, nə qədər olmasa da, özlərinin canını qoruyurlar, millətin isə reputasiyasını.

---

**Artıq iki aydır ki, iqtisadçıların proqnozlarına zidd olaraq manatın məzənnəsində sabitlik müşahidə olunur. Yanvar ayında manat qarşısında 1.92 məzənnəsinə kimi bahalaşan dollar, fevralın 3-də kəskin ucuzlaşdı və artıq iki aydır ki, 1.72-1.74 ətrafında sabitləşib. İqtisadçı ekspertlər isə bu dəfə manatın məzənnəsinin sabit saxlanılmasının iqtisadiyyata mənfi təsir etdiyini və bir müddət sonra bunun mənfi nəticələrinin hiss olunacağını iddia edirlər.**

# Manatın sabit qalması - iqtisadi komandanın möcüzəsi, yoxsa...

## Rəşad Həsənov: "Bugünlərdə müşahidə olunan məzənnə sabitliyinin uzunmüddətli və dayanıqlı olacağını düşünmürəm"

## Vüqar Bayramov: "Bu monitor siyasəti iqtisadi uğur kimi qiymətləndirmək mümkün deyil"

Bəs görəsən, manatın sabitliyi hökumətin iqtisadi komandasının uğurudur, yoxsa hansısa primitiv bir iqtisadi metodun bəhrəsi?

Manatın sabit qalmasını Azərbaycanın iqtisadi möcüzəsi adlandıra bilərikmi?

**Bu sualı cavablandıran iqtisadçı ekspert Rəşad Həsənov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, manatın hazırkı sabitliyinin hansısa iqtisadi uğurun nəticəsi olduğuna inanmır:** "Manat hökumətin və Mərkəzi Bankın məzənnə siyasətinin nəticəsi olaraq Azərbaycan iqtisadiyyatı çox ciddi itkilərlə üzləşdi. Devalvasiyalar baş verdi. Hələ də risklərin tamamailə aradan qalxmadığı bir dövrü yaşayırıq. O mənada maliyyə bazarındakı hazırkı sabitliyi qiymətləndirsək, bu daha çox iqtisadi proseslərdən qaynaqlanan bir məsələdir. Hazırda iqtisadi durğunluq yaşanır, valyuta bazarı kifayət qədər daralıb, idxalın həcmində azalma var. Dövlət büdcəsi hesabına xaricdən idxal edilən məhsullara da məhdudiyyət tətbiq olunur. Bundan başqa, əvvəlki illərdən fərqli olaraq hazırda bazarın ən böyük iştirakçılarından biri olan Beynəlxalq Bankın faktiki olaraq bazardan müəyyən qədər kənarlaşması baş verib. Çünki Beynəlxalq Bankın valyuta öhdəliklərini yerinə yetirməsi məqsədilə Mərkəzi Banka Neft Fondundan 7,5 milyard manat həcmində vəsaitin köçürülməsi ilk dəfə 2017-ci il üçün nəzərdə tutulub. Bu da Beynəlxalq Bankın valyuta bazarlarından kənarlaşmasına səbəb olmaqla, onsuz da kiçik olan bazarın daha da daralmasına gətirib çıxarıb".

**İqtisadçının sözlərinə görə, hazırda valyuta alış-satışından qazanan bazar iştirakçıları da passivləşib:** "Eyni zamanda son iki ildə yaranmış situasiyadan istifadə etməyə cəhd göstərən bazar iştirakçıları meydana gəlmişdi. Çünki sabit məzənnə dövründə valyuta alışı və satışı heç də gəlirli olmur. Lakin dəyişkən məzənnə dövründə valyuta dəyişmədən gəlir əldə edilməsi daha cəlbedici olur. Bu baxımdan, son iki ildə müəyyən bir qrup bu istiqamətdə daha aktiv idi. Lakin onların da bəzi hallarda məzənnəni düzgün proqnoz edə bilməməkdən qaynaqlanan zərərlərinin olması onların daha ehtiyatlı davranmasına gətirib çıxarıb. Bunların bir çoxu artıq bazardan kənarlaşıblar. Həmçinin büdcə xərcləmələrinin həcmi ilə bağlı da inzibati formada ciddi nəzarət həyata keçirilir. Söhbət büdcə xərcləmələrinin bazara daxil olmasından gedir. Eyni zamanda manatla kreditləşmənin tamamilə məhdudlaşması səbəbindən bu gün bazarda valyuta tələbi formalaşdıracaq manat kütləsinin olmaması da məzənnənin sabit qalmasına səbəb olub. Ümumiyyətlə, bu gözlənilən idi. Mərkəzi Bankın dekabrın 31-də açıqladığı pul siyasətində də məzənnəni və inflyasiyanı nəzarət olunan səviyyədə saxlamaq məqsədilə sərt pul-kredit siyasətinin həyata keçirilməsinin davam etdiriləcəyi elan edilmişdi. Bugünlərdə müşahidə olunan məzənnə sabitliyinin uzunmüddətli və dayanıqlı olacağını düşünmürəm. Növbəti aylarda bu sabitlik yenidən pozulacaq və manatın məzənnəsində yenə də ucuzlaşma baş verəcək".

**İqtisadçı ekspert Vüqar Bayramov da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, iqtisadçıların proqnozları manatın məzənnəsinin necə dəyişməsi haqqında deyil, dollara olan tələbin necə dəyişməsi ilə bağlı idi:** "Biz mart və aprel aylarında dollara olan tələbin dəyişəcəyini proqnozlaşdırırdıq. Martın sonunda dollara olan tələbin artması müşahidə edildi. Bu, müəyyən qədər məzənnədə də özünü göstərdi. Bayramdan sonra manatın cüzi də olsa ucuzlaşması baş verdi. Dollara olan tələbin artması isə indiki halda heç də manatın məzənnəsinin ucuzlaşması anlamına gəlmir. Əslində isə məntiqlə bu anlama gəlməlidir. Nəzərə alsaq ki, hazırda Mərkəzi Bankın təsir imkanları güclü olaraq qalmaqdadır. Mərkəzi Bank bir tərəfdən depozitlərin saxlanılması vasitəsilə manat bazasının kiçilməsinə nail ola bilib, digər tərəfdən isə dollara tələb o səviyyədədir ki, son bir ildə Dövlət Neft Fondunun transferləri, hərraca çıxartdığı vəsaitlər kifayət edir. Mərkəzi Bankın bir il ərzində bazara intervensiya etməməsi isə dollar ehtiyatlarının artmasına təsir göstərib. Biz manatın məzənnəsinə cüzi dəyişikliklər müşahidə edirik, cüzi artım və azalmalar baş verir".

**Azərbaycanda manat ətrafında yaranmış durumu Rusiyada rublun məzənnəsinin stabilləşməsi ilə müqayisə edən Vüqar Bayramov oxşar situasiyanın olduğunu bildirdi:** "Əslində əvvəlki dövrdə dollarlaşma səviyyəsi yüksək olduğu üçün Azərbaycanda da Rusiyada tətbiq edilən model formalaşdı. Növbəti dövrdə manatın kursunun necə dəyişməsi isə Mərkəzi Bankın məzənnə stabilliyini necə qoruyub saxlamasından asılı olacaq. Təbii ki. Biz manatla rublun tam olaraq müqayisəsini apara bilmirik. Çünki manatın məzənnəsinə əlavə təsirlər çoxdur. Əgər Azərbaycan iqtisadiyyatının 87 faizini neft məhsulları təşkil edirsə, Rusiyada



bu rəqəm ümumi ixracatın yarısıdır. Müqayisə etmək çətin olsa da, tendensiya oxşardır. Hər iki ölkədə dollarlaşma səviyyəsi yüksək idi. Buna uyğun olaraq Mərkəzi Bankın manat bazarını tənzimləməsi dollar tələbinə təsir göstərdi. Mərkəzi Bankın monitar siyasəti manatın məzənnəsinə təsir göstərdi. Dollarlaşma prosesi təxminən başa çatdığına görə tələbat azaldı. Yanvarın sonuna doğru hərraclarda satılan ixracın 85 faizi idxala, cəmi 7 faizi yığıma gedirdi. Əgər 2014-2015-ci illərdə dollarlaşma prosesi yığım üçün idisə, 2016-cı ilin sonu, 2017-ci ilin əvvəlində artıq banklar hərraclarda dolları idxal əməliyyatları üçün alırdılar. Dollarlaşmanın azalması da manatın möhkəmlənməsinə müsbət təsir göstərdi. Burada həmçinin Mərkəzi Bankın manat bazasını tənzimləməsi, hərracların keçirmə qaydalarını dəyişməsi, eləcə də DNF-ə və AMB-ə məxsus olan 7,5 milyard dolların hərraclara çıxarılmaması dollara olan tələbin azalması baxımından vacib idi. Ümumilikdə bu monitor siyasəti iqtisadi uğur kimi qiymətləndirmək mümkün deyil. Bu, növbəti dövrlərdə manatın məzənnəsinin necə dəyişməsindən asılı olacaq. Əgər Mərkəzi Bank növbəti aylarda da stabil məzənnəyə nail olacaqsa, o zaman Rusiyada olduğu kimi Azərbaycanda da milli valyutanın bazar dəyərini alması mümkün olacaq. Bu da iş adamlarına investisiya etmək imkanları yaradır. Bu ilin növbəti aylarında Mərkəzi Bank çalışmalıdır ki, məzənnə stabilliyinə nail ola bilsin. Çünki biznes sektorunda investisiya qoyuluşlarının artması birbaşa məzənnə stabilliyinin olmasından keçir".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 69 (6683) 5 aprel 2017

**Aprelin 3-də günorta saatlarında Rusiyanın Sankt-Peterburq şəhərində metroda terror aktı törədilib. Partlayış "Sennaya ploşad" və "Texnologiçeskiy institut" stansiyalarında baş verib. Partlayış içi öldürücü maddələrlə doldurulmuş əldəqayırma qurğu vasitəsilə törədilib. Partlayışdan sonra vaqon iki yerə bölünüb. Qırğızıstan Dövlət Təhlükəsizlik Xidməti Sank-Peterburqda metroda terror aktı törətməkdə şübhəli sayılan şəxsin adını açıqlayıb. Terror aktının 1995-ci ildə Qırğızıstanın Oş vilayətində anadan olmuş, Rusiya vətəndaşı olan Akberjon Cəlilov tərəfindən törədildiyi dəqiqləşib.**

# Sankt-Peterburq terrorunu qırğız törədib

## Təhlükəsizlik eksperti Orta Asiyanın "terror fabrikası"na çevrilməsinin səbəbini açıqladı


İlham İsmayıl

Rusiyanın xarici işlər naziri Serqey Lavrov Sankt-Peterburqda baş verən terrorla bağlı qırğızıstanlı həmkarı Erlan Abdıldayevlə birgə mətbuat konfransı keçirib. Lent.az-ın russian.rt.com-a istinadən məlumatına görə, S.Lavrovla müzakirələrindən söz açan Erlan Abdıldayev bildirib ki, terroru törədən şəxsin Qırğızıstan əsilli olduğu təsdiqlənib: "Lakin o, Rusiya vətəndaşlığını qəbul edib və Qırğızıstan Dövlət Təhlükəsizlik Komitəsi də terrorçu-kamikadzenin Qırğızıstan əsilli Rusiya vətəndaşı olduğunu təsdiqləyib".

Terrorçunun İŞİD-lə bağlılığının olması sualını cavablandıran E.Abdıldayev deyib ki, bununla bağlı fikir söyləmək hələ tezdir.

Hazırda Qırğızıstan Dövlət Təhlükəsizlik Xidmətinin Oşdakı müvafiq strukturları Ə. Cəlilovla bağlı bütün məlumatları, əlaqələri araşdırır. Terrorla əlaqədar şəhər administrasiyası aprelin 4-dən etibarən Sankt-Peterburqda 3 günlük matəm elan edib. Partlayış nəticəsində 14 nəfər həlak olub, 45 nəfər yaralanıb.

Terrorun törədilməsində Orta Asiyadan çıxmış şəxsin adının hallanması hansı ipuclası verir? Niyə qanlı terror aktlarını planlayanlar metro stansiyalarını hədəf seçirlər? Metroları zəif nöqtə edən hansı amillərdir?

**Təhlükəsizlik xidmətinin istefada olan polkovnik-leytenantı İlham İsmayıl "Yeni Müsavat"a deyib ki, metroların zəif nöqtə olmasının bir neçə səbəbi var:** "Düzdür, metro stansiyalarının girişində mühafizə var. Hamımız bilirik ki, mühafizə hər kəsi bir-bir yoxlayıb stansiyalara buraxmır. Aeroportda olduğu kimi hamını bir-bir xüsusi avadanlıqdan keçirib yoxlamaq da mümkün deyil. Metro aeroport deyil. Kimisinin üzərində qəpiklər, toqqası və sair dəmirdən hazırlanan müxtəlif əşyalar olur. Bu baxımdan, hamını ətraflı şəkildə yoxlamaq mümkün olmur. Ona görə də təhlükəsizlik baxımından metro zəif bənddir. Sankt-Peterburq, Moskva metroları da Bakı metrosundan fərqli olaraq daha çox qələbəlikdir, sərnişin axını daha intensivdir. Ona görə də terrorçular asan hədəf kimi metroya üstünlük verirlər. Terrorçular üçün çətini silahı, bombanı əldə etməkdir. Silahı, bombanı ölkədən-ölkəyə keçirmək çətin olduğu üçün daha çox əldəqayırma partlayıcılardan istifadəyə üstünlük verilir. Avropada terrorun yeni üsulu kimi maşın qaçırıb piyadaların üzərinə sürməklə qətliam törətmək praktikası məhz bu çətinliklərdən irəli gələn metoddur. Gedib bir maşın oğurlayır və camaatın üstünə sürürlər. Yeri gəlmişkən, belə təhdidlər hər an gözlənilir, o cümlədən Azərbaycanda da baş verə biləcəyi istisna deyil. Terrorun son məqsədi, xarakterik xüsusiyyəti budur ki, daha çox adam ölməli, daha çox dağıntı olmalıdır. Bu halda terroru planlayanlar düşünürlər ki, hədəflərinə daha çox çatırlar. Təzyiq göstərdikləri hədəfdə dövlətdirsə, dövləti, təşkilatdırsa, təşkilatı daha çox sarsıtmağa çalışırlar. Öz varlıqlarını nümayiş etdirirlər. Bu baxımdan, hədəfə çatmaq üçün əlverişli yer kimi metro seçilir".

**İ.İsmayıl deyir ki, belə olayların qarşısını almaq üçün terrorçuların içindən planlar haqda bilgilər toplamaq ən düzgün yoldur:** "Əməliyyat işləri keçirilməli, bu işlərin nəticəsində planlaşdırılan hərəkətlərlə bağlı məlumatlar əldə olunmalıdır. Ancaq bu yolla planlaşdırılan qanlı olayların qarşısını almaq mümkündür. Metroda təhlükəsizlik tədbirlərini gücləndirmək, daimi nəzarəti təmin etmək vacibdir, ən yaxşı yol isə terror baş tutmamış, terrorçular hərəkətə gəlməmiş onları zərəsizləşdirməkdir".

**Sabiq təhlükəsizlik zabiti deyir ki, ölkəmiz də terrorçuların hədəfindən kənarda deyil:** "Türkiyədə, aylar sonra Sankt-Peterburqda terroru icra edənlərin Orta Asiyadan çıxması təsadüfi deyil. Orta Asiya "əl-Qaidə"nin mənzilləndiyi ərazilərlə qonşuluqdadır. Həmin ərazilərdə olan terrorçuların hədəflərindən biri də Azərbaycandır. Hazırda Dövlət Təhlükəsizlik Xidməti bu sahədə çoxşaxəli iş aparır və görülən tədbirlər nəticə verir. Orta Asiyanın qonşuluğunda həddindən artıq radikalizmə, terrora meylli qruplar var. Həmin qrupların təsiri altına düşən xeyli insan var. Həmin insanlardan terroru planlayanlar öz çirkin məqsədlərini gerçəkləşdirmək üçün istifadə edirlər. Türkiyədə, ardından Rusiyada Orta Asiyadan çıxanlardan istifadə edilməsi buna bir daha sübutdur. Rusiyanın güclü təhlükəsizlik orqanları var. Amerikada da, Fransada da həmçinin. Amma bu dövlətlər belə tam olaraq terrorun qarşısını ala bilmirlər. Bu o demək deyil ki, bu dövlətlərin təhlükəsizlik orqanları zəifdir. Ən güclü xüsusi xidmət orqanlarına malik olan dövlətlərdə belə terror baş verir".

❑ E.MƏMMƏDƏLİYEV



# Rusiyadakı terror Putinə nəyin mesajıdır?

## Terror hücumlarının bir səbəbi də gözlənilən Raqqa əməliyyatı ola bilər

**Aprelin 3-də Rusiyanın Sankt - Peterburq şəhərində törədilən terror aktında ölənlərin sayı 14-ə çatıb, 45 nəfər isə yaralanıb. Artıq terroru törədən şəxsin kimliyi də elan olunub; partlayışı Rusiya vətəndaşı, 1995-ci ildə Qırğızıstanın Oş vilayətində anadan olmuş Akberjon Cəlilov törədib.**



"Kommersant" qəzetinin xüsusi xidmət orqanlarındakı etibarlı mənbələrə istinadən verdiyi məlumata görə, terror aktının hazırlanması barədə informasiyanı İŞİD-lə əməkdaşlıq edən və təşkilatın içinə sızmış rusiyalı agent xəbər verib.

Həmin şəxs Suriyada döyüşən İŞİD-çilərin içində olub.

Mətbuata sızdırılmış bu məlumat terrorun İŞİD tərəfindən törədilməsi ehtimalını gücləndirir. Yeri gəlmişkən, bu iddianı qüvvətləndirən daha bir məqam: İŞİD-in iki həftə əvvəl yayınladığı şəkildə Rusiya təhdid olunur, öldürmə və yandırma çağırışı yer alırdı. Daha bir maraqlı detal isə İŞİD içərisində çoxsaylı Rusiya agentlərinin olması ilə bağlıdır.

Qeyd edək ki, İŞİD-in tərkibində 3 min nəfərə yaxın postsovet ölkələrindən gəlmiş şəxslər var. Rusiya kəşfiyyat xidmətinin məlumatına görə, bunlardan 1700 nəfəri Şimali Qafqazdan, əsasən də Çeçenistandandır. Hətta Rusiyadan İŞİD-ə qatılanların sayının 3 mindən çox olması haqda iddialar da var. Bundan başqa, hazırda Çeçenistanda və Şimali Qafqazda fəaliyyət göstərən "Qafqaz Əmirliyi" qruplaşması 2015-ci ildə İŞİD-ə biət etdiyini bəyanlayıb və bundan sonra İŞİD Şimali Qafqaz əyalətini elan edib. Yəni birbaşa İraq və Suriyadan gəlməsə belə, Rusiya ərazisində İŞİD-in silahlı terrorçuları vardır. Bu isə İŞİD tərkibində fəaliyyət göstərən Rusiya vətəndaşlarının sayının daha böyük olduğunu göstərir.

Qeyd edək ki, İŞİD-in tərkibindəki Rusiya vətəndaşları arasında Rusiya xüsusi xidmət orqanlarının da əməkdaşları vardır. Bu məlumat daha öncədən bəlli olsa da, ilk dəfə bunu Çeçenistan prezidenti Ramzan Kadırov açıqlayıb. Kadırov 2015-ci ildə Rusiya mediasına verdiyi müsahibədə İŞİD-in içərisindəki agentlərdən bilgi aldıqlarını etiraf etmişdi. Rusiya xüsusi xidmətlərinə çalışan bu agentlər Moskvaya məlumat ötürür, eləcə də Suriyada İŞİD mövqelərini bombalayan təyyarələr üçün koordinatlar verir. Kadırov deyib ki, məhz bu səbəbdən Rusiya aviasiyası Suriyadakı İŞİD mövqelərini dəqiqliklə vura bilir.

R.Kadırov etiraf edib ki, bu agentlərin bir qismi İŞİD yaranmamışdan əvvəl, Suriyada münaqişənin ilk başladığı dönəmlərdə bölgəyə gedənlər arasında olub. Hətta onların bir qisminin Suriyada "müxaliflər" adı altında NATO düşərgələrində təlim aldıqlarını iddia edib. 2013-cü ildə radikal islamçılar arasında bölünmə baş verəndə postsovet coğrafiyasından gedənlərin böyük qismi məhz İŞİD-ə qoşulub, qruplaşmanın əsas hərbi əməliyyat qüvvələrinə Gürcüstan vətəndaşı olan etnik çeçen Tarxan Batriaşvili komandanlıq edib.

Bu məlumatları təsdiqləyən daha bir arqument isə İŞİD-in zaman-zaman öz içərisində "agent" ifşası ilə bağlı videolar yaydığı, hətta etiraf ifadələrinin yer aldığı kadrlardır. "İfşa olunan" bu agentlər hamısı amansızcasına edam olunub. Hətta agentlərdən biri azyaşlı uşaq tərəfindən edam olunmuşdu.

Qeyd edək ki, terrorun məhz bu ərəfədə baş verməsi, Rusiyada baş verən kütləvi aksiyalarla eyni dönəmə təsadüf etməsi konspiroloji fikirlərə də meydan verir. Ancaq məsələ ondadır ki, İŞİD-in məhz bu ərəfədə Rusiyanı hədəfə alması üçün ciddi səbəblər var. Yeri gəlmişkən, iki həftə əvvəl silahlılar Çeçenistanda da hərbi hissəyə hücum etmişdi. Bu hücumların hər ikisi ən sadə izahla qisas əməliyyatı ola bilər, eyni zamanda Rusiyanın diqqətini daxili təhlükəsizliyə cəlb etmək də. Məsələ ondadır ki, məhz Rusiyanın 2015-ci ilin sonlarında Suriyada aktiv hərbi əməliyyatlara başlamasından sonra İŞİD-ə ağır zərbələr vurulub, hökumət qüvvələri ölkə boyunca ciddi hərbi uğurlar qazana bilib. Son olaraq Həma ətrafında silahlıların hücumların Rusiya ordusunun dəstəyi ilə geri oturdulub və hazırda Suriya ordusu irəliləməkdə davam edir.

Ancaq Rusiyaya qarşı terror hücumlarının əsas səbəbi gözlənilən Raqqa əməliyyatı ola bilər. Məlum olduğu kimi, hazırda bir tərəfdən Suriya Demokratik Qüvvələri və onları dəstəkləyən ABŞ və rəhbərlik etdiyi hərbi koalisiya, digər tərəfdən isə Suriya ordusu və Rusiya hərbi birləşmələri Raqqa şəhərinə əməliyyata hazırlaşır. Raqqa İŞİD-in Suriyadakı paytaxtı və əsas qalasıdır. Həm Şimali Qafqazda silahlıların fəallaşması, həm də terror aktları heç şübhəsiz ki, Moskvanın diqqətini "iç məsələlərə" yönəltməyə hesablanıb. Çox güman ki, Şimali Qafqazda növbəti bir silahlı hücum genişmiqyaslı antiterror əməliyyatlarına əsas verəcək. Bu isə istər-istəməz Suriya əməliyyatlarını kölgədə qoyacaq.

Terrora məhz bu məqsədlə Rusiya xüsusi xidmətləri tərəfindən ən azından, göz yumulması versiyası həm də ona görə şübhə doğurur ki, İŞİD-in Rusiyanın zəif yerlərindən vura bilməsi indi onun imici üçün zərərlidir. Çünki Putinin Suriyada hərbi əməliyyatlara qatılmasının önəmli səbəblərindən biri də savaş xəttini ölkəsindən uzaqda tuta bilməsidir. Lakin son olaylar göstərir ki, Rusiyanı məhz iç təhlükəsizlik problemlərini yönəltmək istiqamətində ciddi cəhdlər var.

❑ Kənan RÖVŞƏNOĞLU

YENİ MÜSAVAT
N 69 (6683) 5 aprel 2017

# Balaxanıda 632 yaşlı məscid dağılmaq üzrədir

## Nazirlik "Hacı Şəhla" məscidini necə qoruyur?

**Bakının ən qədim kəndlərindən olan Balaxanıda tarixi abidələrin bir çoxu baxımsız vəziyyətdədir. Yolları uçuq-sökük kəndin qəbiristanlığında yerləşən "Hacı Şəhla" məscidi isə tamamilə məhv olmaq təhlükəsi ilə üz-üzədir. "Hacı Şəhla" məscidinin üstündə vaxtilə iki sətirlik kitabə olub. Həmin kitabədə bu sözlər yazılıb:**

"Bu imarət Hacı Şəhla bin Şakir bin Mustafa Köşkinindir. Yeddi yüz səksən yeddinci il". Bu kitabədən bir az solda, qapı çərçivəsindən bir az aralı ərəbcə bir kitabə də olub ki, bu da imarəti tikən ustaların adını bildirir. İki sətirlik bu kitabə belə oxunub: "Ustad Arif bin ustad Musa Cibalın işidir".



Üzərində olan kitabələrdə məscid imarət kimi adlandırılıb. Ancaq bəzi məscidlərdə onların son imarət kimi qeyd olunmasına rast gəlinir. Məsciddə məzarlığa təsadüf olunmadığı üçün məzarın harada yerləşməsi bu günə qədər bilinmir. Yəni məscid tədqiq olunmadan məhv olmaq üzrədir. Tikili hazırda uçulmuş vəziyyətdədir. Bir qədər əvvələ kimi məscidin tam yarısı, cənubdan-şimal tərəfə dağınıq vəziyyətdə olsa da qalırdı. Yəni portal hissəsinin yarısı, qərb divarı salamat idi. Hazırda isə həmin tikilinin olan-qalan divarları da tamamilə dağılır. Məscidin dağınıq qalıqları üzərində **"Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. Yerli əhəmiyyətli memarlıq abidəsi. "Hacı şəhla" məscidi. 1385-ci il. İNV № 127. Abidə dövlət tərəfindən qo..."** sözləri yazılan, artıq ironiyaya çevrilmiş tanıtım lövhəsi də göz deşir. Lövhədə məscid tikdirənin adı belə orfoqrafik səhvlə yazılıb. "Nazirlik məscidi necə qoruyur" sualı da açıq olaraq qalır. Məscidin salamat qalaraq günlərimizə qədər gəlib çıxan divarında əmələ gələn geniş çat lövhənin alt hissəsini də sındırıb. Nəticədə lövhədəki "qorunur" sözü "qo..." şəklinə düşüb və sanki məscid divarları ironiya-lövhədən, onu məscid üzərinə pərçimləyənlərdən yaxa qurtarmağa can atır. Tarixi abidə əbədiyyətə onu qorumayanların adı ilə deyil, öz adı ilə qovuşmağa can atır. Fotolardan da aydın şəkildə göründüyü kimi, memarlıq abidəsi son günlərini yaşayır. Ümumiyyətlə isə Balaxanı qəsəbəsindəki tarixi abidələrin hər birinin durumu acınacaqlıdır. Şirvanşah əmiri Xacə Zeynəddinin göstərişi ilə XIV əsrdə tikilmiş ovdanın ümumi görünüşü də ürək parçalayır. Tarixi abidəni əhəngləyib qədimiliyini tamamilə itiriblər. 40 pilləkənli su ovdanı vaxtilə insanların suya olan tələbatı ödəməyə görə inşa edilib. XIV əsrdən XIX əsrin sonuna qədər, eləcə də 1920-ci ilin aprel inqilabına qədər istifadə olunub. Yeddi metr dərinliyi olan bu ovdan Balaxanı sakinləri üçün təmiz sudan istifadə üçün nəzərdə tutulmuşdu. Su quyusunun ortasında olan çarxa sakinlər at bağlayaraq suyu çəkiblər. Su arxlara, eləcə də Qum hamamına da gedərmiş. Sovet dövründə tarixi abidə baxımsızlıqdan zibil atılan məkana çevrilmişdi. Müstəqilliyin ilk illərində isə su ovdanı yerli sakinlərin təşəbbüsü ilə təmizlənib səliqəyə salınmışdı. Kəndin cənubundakı "Boq-boqi" adlanan yerin yaxınlığında vaxtilə Suraxanı atəşgahına bənzər abidə olub. Kəndin cənub hissəsindəki köhnə qəbiristanlıqda "Pirə Moulo" piri, kəndin ortasındakı böyük tut ağacının yanında olan "Sənqıran" piri olub. Tarixi abidələrə biganəlik sadalanan abidələrin tarixdən silinib yox olmasına gətirib çıxarıb.

1636-cı ildə tikilmiş "Hacı Ruhulla" tikilisi, yerli sakinlərin "Şah Səfi karvansarayı" adlandırdığı bina kəndin mərkəzində yerləşir.

Balaxanı qəsəbəsi coğrafi mövqeyinə görə Abşeron yarımadasının mərkəzində, tarixi İpək Yolunun üstündədir. Zamanında bütün tacirlərin yolu buradan düşüb və "Şah Səfi karvansarayı" da onların ixtiyarında olub. Azərbaycan hökuməti inkişaf strategiyasının əsas istiqamətlərindən biri kimi turizm sahəsinin seçildiyini bəyan edib. Ölkəyə yenicə turist axını başlayıb. Belə bir vaxtda Abşeronun, ölkəmizin tarixi, inkişaf yolu ilə maraqlanan turistlərə ölkə boyu səpələnən, Bakının kənd və qəsəbələrindəki tarixi abidələri göstərmək məqsədəuyğun deyilmi?

❑ E.MƏMMƏDƏLİYEV

**İZRAİL ƏNƏNƏSİ ƏSASINDA ÖZƏL TİBBİ SAHƏDƏ 20 İLLİK TƏCRÜBƏ!**
**Xəstəlikdən əzab çəkən insanlara Əsasən Kişilərə!**
**Diqqət!!! Axırıncı Şans!!!**

**Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, doktor VAİZ SƏMƏDOV şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi müayinə və müalicə edə bilər.**

- ✳ Diaqnozu bilinməyən ağır hallar;
- ✳ Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər;
- ✳ Cinsi zəiflikdən impotensiyadək, marağın və aktların azalması;
- ✳ Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)
- ✳ Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)
- ✳ Sidikdə və spermada qan;
- ✳ Spermanın azalması, itməsi;
- ✳ Kişi cinsi orqanının birdən əyilməsi, balacalması;
- ✳ Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) yaşa görə balaca olması;
- ✳ Ailədə olan hormonal və infeksion səbəbli sonsuzluq;
- ✳ Tala-tala və hərtərəfli saçların tökülməsi;
- ✳ Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları;
- ✳ Baş-boyunda, onurğa-qılçaqlarda, qollar-ayaqlarda, qasıq-xayalarda ağrılar;
- ✳ Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.
- ✳ Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.

---

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

---

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*
Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.



# Bakı yenə "tıxaca düşdü"

## Səbəb Yusif Səfərov küçəsinin təmirə bağlanmasıdır

**Aprelin 4-dən Bakı şəhərinin bəzi yollarında nəqliyyat vasitələrinin hərəkətinə tətbiq olunan məhdudiyyət ciddi tıxaca səbəb olub. "APA-Economics" xəbər verir ki, Heydər Əliyev, Babək prospektlərində, Yusif Səfərov, Koroğlu Rəhimov, Nəcəfqulu Rəhimov, Afiyəddin Cəlilov və bir sıra digər küçələrdə nəqliyyatın hərəkəti iflic olub.**

"Azəravtoyol" ASC-nin yaydığı məlumatda bildirilib ki, aparılacaq təmir işləri ilə əlaqədar olaraq Yusif Səfərov küçəsinin Heydər Əliyev prospekti ilə kəsişməsindən mərkəzə doğru olan istiqamətində Üzeyir Hacıbəyli küçəsi ilə kəsişməyədək olan hissəsində nəqliyyat vasitələrinin hərəkəti tam olaraq məhdudlaşdırılır. Məhdudlaşdırma aprel ayının 3-dən 4-nə keçən gecədən etibarən və təmir işləri bitənədək tətbiq ediləcək. Qurum alternativ olaraq sürücülərə Babək prospekti - Fəzail Bayramov küçəsi - Xocalı prospekti - Afiyəddin Cəlilov küçəsi, həmçinin Babək prospekti - Nəcəfqulu Rəfiyev küçəsi - Afiyəddin Cəlilov küçəsi istiqamətlərindən istifadəni tövsiyə edib.

Məlumata əsasən, Heydər Əliyev prospektindən Yusif Səfərov küçəsinə gedən yol (Babək prospektinə və Sergey Senyuşkin küçəsinə aparan körpünün sağ və solu - red.) bağlıdır. Yusif Səfərov küçəsinə daxil olmaq istəyən sürücüləri "Azəravtoyol" ASC tərəfindən quraşdırılan "Müvəqqəti narahatlığa görə üzr istəyirik" yazısı olan plakat qarşılayıb. Sürücülər məcburən yuxarıda qeyd edilən alternativ yollara üz tutub. Bu yolların ötürücülük qabiliyyəti isə tıxaca tab gətirmək iqtidarında deyil. Dövlət Yol Polisinin ərazidə işləyən inspektorlarının hərəkəti tənzimləmək cəhdləri də tıxacın azalmasına ciddi təsir etmir.

Yeri gəlmişkən, Bakı Nəqliyyat Agentliyinin (BNA) yaydığı məlumatda deyilib ki, Yusif Səfərov küçəsinin Heydər Əliyev prospekti ilə kəsişməsindən şəhər mərkəzi istiqamətinə olan hissəsində aparılan təmir işləri ilə əlaqədar nəqliyyat vasitələrinin hərəkəti məhdudlaşdırıldığından, həmin yoldan keçən marşrut xətlərinə də müvəqqəti dəyişiklik edilib. Dəyişikliyə əsasən H1 (Ekspress xətt) 1, 2, 4, 21, 32 və 46 nömrəli marşrut xətləri üzrə avtobuslar təmir işləri bitənə qədər, alternativ olaraq Babək prospekti, Nəcəfqulu Rəfiyev küçəsi, Afiyəddin Cəlilov küçəsi, Fəzail Bayramov küçəsi və İzzət Orucov küçəsindən keçməklə hərəkət istiqamətinə davam edəcəklər. Beləliklə, ictimai nəqliyyat vasitələrinin bu yollara yönləndirilməsi tıxacın daha da böyüməsinə səbəb olub.

**Elan**

**Mərkəzdə, "Gənclik" metrosunun çıxışında kupçalı tap 3 otaqlı daş ev, 5/4 orta blok. Su, qaz, işıq daimi. Nərimanov prokurorluğunun həyətində öz evində, orta təmirli. Qiyməti razılaşma ilə. Maklerlər narahat etməsin.**
**Əlaqə telefonu: (070) 399-01-00; (050) 234-64-67**

YENİ MÜSAVAT
N 69 (6683) 5 aprel 2017

**Son günlər bəzi işbazların bazara at əti çıxarmaq istərkən yaxalanması cəmiyyətdə ciddi narahatlıq doğurur. At ətinə tələbatın necə formalaşması, bu cəmdəklərin haraya daşınması, müxtəlif ət məhsullarının hazırlanmasında at ətindən istifadə edilib-edilməməsi kimi suallar insanları narahat edir.**

# Qədim dövrlərdə Azərbaycanda at əti yeyilibmi?

## Tarixçi alim: “At ətindən istifadə Dədə Qorqudda var”

Müşahidə olunan ümumi rəylərə əsasən, at ətinin satılması, ondan mətbəxdə istifadə insanlarda ikrah hissi doğurur. Təbii ki, bunun da səbəbləri məlumdur.

Çünki bazara çıxarılan at ətləri əsasən ölmüş və ya xəstə atların ətidir. Təbii ki, Azərbaycanda heç kim sağlam atı kəsib satmaq fikrinə düşməz. Digər bir məqam isə bu ətlərin at əti adı altında deyil, mal əti adı ilə alıcılara sırınmasıdır. Bu isə istehlakçıların aldadılması anlamına gəlir və haqlı narazılığa səbəb olur.

Bəs görəsən, at ətinin gündəlik qidalanma menyusunda istifadə edilməsini sözügedən kontekstdən çıxarsaq, buna münasibət necə olar? Məlum olduğu kimi, qədim dövrlərdə türk tayfaları at ətindən qida kimi geniş şəkildə istifadə ediblər. Hətta Qırğızıstanda bu gün də hörmətli qonaq üçün at kəsilir və ətindən müxtəlif yeməklər hazırlanıb süfrəyə düzülür. Azərbaycanda isə son yüzillikdə belə bir ənənə olmayıb. Tarixən Azərbaycan xalqının at ətindən mətbəxdə istifadə edib-etməməsini isə tarixçi alimlərdən soruşduq.

**Tanınmış türkoloq, qədim türk tarixinin araşdırıcısı Firudin Cəlilov “Yeni Müsavat”a danışarkən türk tayfalarından bəzilərinin at ətindən yeməklərdə istifadə etdiyini təsdiqlədi:** “Qədimdə türklər 40-a yaxın tayfadan, yəni boydan ibarət olublar. Onların hamısı at əti yeməyib. Ancaq yeyənlər də olub, bunlar köçəri həyat yaşayanlardır. Oturaq həyat tərzi sürən türk boylarında at əti yemək ənənəsi olmayıb. Köçəri tayfalar atın həm ətindən istifadə ediblər, həm də südündən kımız düzəldib içiblər. Bu, qədim türk xalqının etnoqrafiyasında yer almış bəlli məsələlərdir. Burada mübahisəli heç nə yoxdur. Mən Qırğızıstanda olanda Əsgər Akayev bizə at ətindən qonaqlıq verdi. Bizdə bu gün delikates quzu əti sayılırsa, onlarda at əti sayılır. Buna normal yanaşmaq lazımdır”.

**Tarixçi onu da vurğuladı ki, Azərbaycan türkləri də qədimdə at ətindən istifadə ediblər:** “At ətindən istifadə məsələsi Dədə Qorqudda var. Burada həm at əti yemək, həm də kımız içmək ənənəsinə rast gəlinir. Ancaq bu cüzi olub, geniş yayılmayıb. Çünki Azərbaycan türkləri köçəri olmayıblar, həmişə oturaq həyat keçiriblər. Oturaq həyat yaşayan türklər həmişə əkinçilik, maldarlıq, qoyunçuluqla məşğul olublar. O mənada Azərbaycanda o gələnək geniş yayılmayıb. Azərbaycan ərazisindən gedən ilxıçılar- at sürüləri saxlayanlar Xəzərin ətrafına fırlandılar və qıpçaq çöllərində, Qazaxıstan, Qırğızıstan ərazisində məskunlaşdılar. Orada qalanlar hələ indi də at əti yeyirlər”.

**Firudin Cəlilovun sözlərinə görə, o zaman ruslar qıpçaqlardan at əti yeməyi öyrənib və bunu kolbasa istehsalında tətbiq ediblər:** “Son vaxtlara qədər ən delikates sayılan at ətindən hazırlanan kolbasalar idi. Ruslar indi də onu hazırlayır. Türklər sadəcə donuz ətini heç zaman yeməyiblər. Bineyi-qədimdən indiyə kimi nə donuz saxlayıblar, nə də onun ətini yeyiblər. Ancaq at ətindən istifadə ediblər”.

❑ Nərgiz LİFTİYEVA



## “Dövlət qurumları at və eşşək əti satanlardan haqq alır”

**Milli Məclisin deputatı Fazil Mustafa Azərbaycanda son günlər yaranan at və eşşək əti qalmaqalıyla bağlı sərt ittihamlarla çıxış edib.**

Bakipost.az-a açıqlama verən millət vəkili deyib ki, aidiyyəti qurumlar, bu işə nəzarət edən dövlət təşkilatları at və eşşək əti satanlardan haqq alır: “Qanunvericiliyə görə belə işlərlə məşğul olanları cəzalar gözləyir. Lakin aidiyyəti qurumların səhlənkarlığı, yaxud da üzgörənliyi ucbatından vətəndaşlarımızın həyatını təhlükəyə atan, insanlara murdar ətlər yedirdən insanlar nəinki məsuliyyətdən yaxa qurtarır, hətta illərlə öz əməllərini davam etdirə bilirlər. Hamı bilir ki, harda nə kəsilir, niyə kəsilir. Sadəcə, kimsə vaxtında ”nəyisə" çatdırıb verə bilmir, ona görə də nəzarət edən qurumlar tərəfindən ifşa olunur".

**F.Mustafa bu problemin Milli Məclisdə qaldırılacağını bildirib:** “Əhaliyə at və eşşək ətlərini başqa mal-heyvan əti əvəzinə yedirirlər. Bu da çox təhlükəli bir tendensiyadır. Hesab edirəm ki, cəmiyyətdə buna qarşı müəyyən səslər yüksəlməlidir. Çünki bu, insanların qida zəhərlənməsinə səbəb ola bilər.

Milli Məclisdə də bu məsələ qaldırılacaq. Amma bu, məsələnin yekunu deyil. Qurumlar var ki, onlar öz vəzifələrini yerinə yetirməlidir. Hüquq-mühafizə orqanları da bu işlərə nəzarət edən qurumlara xəbərdarlıq etməlidir".

**Ağcabədi rayonunda yaşayan Cəmilə Hacıyeva redaksiyamıza gələrək şikayətlənib. Şikayətçinin sözlərinə görə, 1992-ci ildən bəri oğlu ilə birgə Ağcabədi rayonuna gəlib. Lakin bu günədək onların yaşayış yeri təmin olunmayıb: “Mən köçkün, didərgin bir insanam. Neçə ildir ki, Ağcabədi rayonunda burdan-ora, ordan-bura köçüb yaşayıram.**

# “İndi də Ağcabədidə didərginik”

## Elçin Qədimov: “Məcburi köçkünün başqa yaşayış yeri ilə təmin etmədən evdən çıxarılması qadağandır”


Cəmilə Hacıyeva

Son yaşayış yerim də rayondakı köhnə xəstəxananın həyətində yerləşən kiçik bir yer olub. Həmin yerdə yaşamaq mümkün deyil, üstəlik, heç bir kommunal xətləri yoxdur. Bu səbəbdən Ağcabədi Rayon İcra Hakimiyyətinə müraciət etdim. İcra başçısı mənim xahişimi nəzərə alıb əvvəllər pensiya idarəsi kimi fəaliyyət göstərən yerə köçməyimizə izn verdi. Dedi ki, ”gedin, yaşayın". Birtəhər cüzi də olsa səliqə-sahman yaradıb oğlumla orda yaşamağa başladıq". **Şikayətçinin sözlərinə görə, 2-3 ay sonra ailəyə ordan köçmək əmri verilib:** “Rayonda yerləşən Heydər Əliyev adına Mərkəzin xanım direktoru bizi yaşadığımız yerdən çıxardıb anasını yerləşdirdi. Halbuki onun anası yerli sakindir, biz isə məcburi köçkün. Bildirdik ki, biz icra başçısının xahişi ilə burda məskunlaşmışıq. Lakin dediklərimizi dinləyən olmadı. Beləcə, yenidən küçələrə düşmək məcburiyyətində qaldıq. Bizi yenidən xəstəxanadakı yerə köçürmək istəyirlər. Lakin biz istəmirik, çünki orda yaşamaq üçün heç bir şərait yoxdur. Qardaşım da Qarabağ əlilidir, iki dəfə ermənilərə girov düşüb. O da gedib xahiş etdi ki, bizi yerimizdən çıxartmasınlar, amma dedilər ki, mümkün deyil. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Ağcabədi rayonunda yerləşən şöbəsinə də müraciət etdik. Həmin qurumdan isə bildirdilər ki, bu cür məsələləri adətən icra hakimiyyəti həll edir”.

**Məcburi köçkünün sözlərinə görə, icra hakimiyyətinə olan müraciətləri də bir nəticə verməyib:** “Əksinə, icra hakimiyyətinin müavinləri bizə hədə-qorxu gəlməyə başladı... Biz artıq neçə illərdir ki, çöllərdəyik. Əvvəl Ağdam rayonundan köçkün düşdük, indi də Ağcabədidə didərginik. Aidiyyəti qurumlardan xahiş edirəm ki, bu məsələdə bizə köməklik etsinlər”.

**Məsələ ilə bağlı yazıda adı keçən qurum və ya şəxslərin mövqeyini öyrənməyə çalışdıq. Ağcabədi Rayon İcra Hakimiyyətindən əməkdaşımıza verilən cavab bu cür oldu:** “Biz bilmirik siz kimsiz. Yazılı surətdə məktub göndərin, baxarıq”.

**Rayonda yerləşən Heydər Əliyev adına Mərkəzin direktoru Məhsəti Ağayeva isə anasının hara köçürülməsindən xəbərsiz olduğunu dedi:** “Bilmirəm, bu haqda mənim məlumatım yoxdur. Kim yerləşibsə onun özündən soruşun. Mənim ümumiyyətlə kimisə harasa köçürməyə səlahiyyətim yoxdur. Mən sadəcə mərkəzin direktoruyam. Mən yalnız öz işlərim üçün harasa müraciət edirəm. Anamın bu yaxınlarda hara köçürülməsini bilmirəm. Məsələ ilə bağlı lazımi yerlərdən soruşun”.

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin mətbuat xidmətinin rəhbəri Elçin Qədimov isə qeyd etdi ki, məcburi köçkünün bu şəkildə yaşadığı yerdən çıxarılması yolverilməzdir:** “Məcburi köçkün 1992-ci ildən Ağcabədi rayonunun müxtəlif ərazilərində yerləşib. Bu gün həmin məcburi köçkünün başqa yaşayış yeri ilə təmin etmədən çıxarılması yolverilməzdir. Yəni qanun buna izn vermir, bu tam qadağandır. Məsləhət bilərdim ki, məcburi köçkün həmin yaşayış yerindən çıxmasın. Məcburi köçkün dövlətin vətəndaşıdır və bununla bağlı rayon icra hakimiyyətinə müraciət edə bilər. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi məcburi köçkünlərin sosial problemləri ilə məşğul olan dövlət qurumudur. Biz də istəmirik ki, məcburi köçkün yaşadığı yerdən çıxıb evsiz-eşiksiz qalsın. Ona görə də məcburi köçkünün yaşayış üçün zəruri şərtlərə, normalara cavab verən mənzillə təmin etmədən yaşadığı yerdən çıxarılması yolverilməzdir”.

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT

Son səhifə

N 69 (6683) 5 aprel 2017

# Maral xalça dükanını qəsb etmək istədi, buynuzu sındı...



Pensilvaniya ştatında bir maral xalça satan bir mağazaya hücum edib. Lenta.ru saytının xəbərinə görə, bu hücum nəticəsində heç kim zərər görməsə də, hadisənin səbəbləri diqqət çəkir. Belə ki, öncə maralı şossedə qaçan yerdə görüblər. Daha sonra o, piyadalar üçün keçiddə peyda olub. Ardınca isə mağazaya daxil olub. Vitrinləri sındıran, əşyaların yerə səpələnməsinə səbəb olan maral son nəticədə buynuzlarını da itirib. Hadisə yerinə polis gəlib. Hüquq-mühafizə orqanlarının əməkdaşları marala çıxışı tapmağa kömək ediblər. Mağaza işçiləri hesab edir ki, maralın məhz xalça dükanını seçməsinin isə səbəbi var. Çünki vitrində daha çox təbiət mənzərəli tablolar, xalçalar asılıb və maral onu görüb təbiətə özənib. Əslində bu, Amerikada maralların şəhərə enməsi ilə bağlı ilk hadisə deyil. Belə ki, daha öncə Amerikada bir maral motel otağına girərək, orada yatmış ər-arvadı oyandırmağa nail olmuşdu.



## Qəbrini qazanda öyrəndilər ki, ölməyib

Keniyanın itkin düşmüş sakininin yas mərasimi təxirə düşüb. Buna səbəb onun sərxoş durumda qonşu şəhərdə tapılması olub. Bu barədə lenta.ru saytı "Daily Mirror"a istinadən xəbər verib. Keniyalı mototaksiçi Uilson Oluok üç həftə boyunca evinə gəlməyib. Onun evinə yaxın ərazidəki plantasiyalardan birində naməlum kişi meyiti tapılanda isə qohumları bu meyitin ona məxsus olduğunu düşünərək yas qurublar. Qəbiri qazan vaxt isə onlara məlumat verilib ki, öldüyü zənn edilən taksi sürücüsü sağdır.

Qohumları göstərilən şəhərə gedərək yayılan şayiələri yoxlamağa çalışıblar və orada həqiqətən də Uilsona rast gəliblər. O, barda sərxoş vəziyyətdə oturmuşdu. İtmiş kişi izah etdi ki, bir neçə həftə əvvəl evə sərxoş vəziyyətdə gəlib. Bu hadisədən sonra o qədər utanıb ki, evdən qaçmaq və yeni həyata başlamağa qərar verib. Sevinmiş qohumlar yas mərasimini ləğv ediblər, onun əvəzində isə Uilsonun qayıtması münasibətilə bayram təşkil ediblər. Onu bəzi paklanma və təmizlənmə əməliyyatlarından keçəndən sonra kəndə buraxacaqlar. Qonşu plantasiyada tapılan naməlum kişi meyitini isə morqa geri qaytarıblar. Meyitin kimliyi hələ də aşkarlanmayıb.

# 91 yaşlı qadın ərindən 4 dəqiqə sonra öldü

Böyük Britaniyada yaşlı qadın ərinin ölümündən 4 dəqiqə sonra dünyasını dəyişib. Onlar 70 il nikahda olublar. Bu barədə lenta..ru saytı "The Telegraph"a istinadən xəbər verib. Cütlük ayrılıq anında bir-birindən ayrı olub. Belə ki, Uilf Rassel, ikinci dünya müharibəsinin iştirakçısı olaraq, 93 yaşında idi. Əqli zəiflik diaqnozuna görə yaşlılar evində qalırdı. Onun 91 yaşlı xanımı Vera Rassel isə bu ilin yanvar ayından xəstəxanada qalırdı. Cütlüyün qohumları danışıblar ki, qadının səhhəti birdən-birə pisləşib. Buna səbəb isə əqli zəiflik və yaddaşsızlıqdan əziyyət çəkən yoldaşının onu tanımaması olub.

29 mart, saat 6.50 radələrində Uilf yaşlılar evində dünyasını dəyişib. Ondan 5 kilometr aralıda, 4 dəqiqə sonra, saat 6.54-də isə Vera dünyaya gözlərini qapadıb. Qadın ərinin dünyasını dəyişməsi barədə son ana qədər məlumatsız olub.

Uilf Vera ilə nişanlananda onun cəmi 16 yaşı olub. Amma toyları olduqca gec, ikinci dünya müharibəsindən sonra baş tutub. 5 sentyabr 1945-ci ildə evlənən cütlük hər zaman mehriban həyat tərzi keçirib.





## 155 kiloluq manekeni 48.5 min nəfər bəyəndi

Dünyanın ən kök manekeni olan Tess Hollidey alt paltrında çəkdirdiyi selfilərini yayıb. Qadının fotolarını 1.3 milyon insan izləyir. "Siz hesab edirsiz ki, mənim işim bitib və siz istədiyiniz zaman sözlərinizlə mənə hücum edə bilərsiz?" 31 yaşlı amerikan qadın şəklinin altına bu sözləri yazıb. "Daily Mail"in xəbərinə görə, bununla da o, ağır çəkisinə rəğmən manekenlik etdiyi üçün onu tənqid edənlərə cavab erib. Qadın hazırda 155 kilo ağırlığındadır. Manekenin selfisi 48.5 min bəyənmə (layk) toplayıb. Facebook daha öncə ona öz yarıçılpaq şəkillərini yayımlamağı qadağan etmişdi. Bu, sosial şəbəkənin estetik kriteriyalarının pozulmasına görə atılmış addım idi. Amma buna qarşı ciddi etirazlar başladı. Hətta feministlər hərəkatı da bununla bağlı müvafiq aksiya başlamışdı.




QOÇ - Təxminən saat 15-ə qədər bütün mühüm işlərinizi təxirə salın. Əks təqdirdə, uğursuz cəhdlər silsiləsinə mübtəla olacaqsınız. Sonrakı müddətdə isə maraqlı hadisə və insanlarla rastlaşacaqsınız.

BUĞA - Şəxsi işlərinizdə, eləcə də qarşılıqlı münasibətlər zəminində müsbət dönüş yaratmaq üçün kifayət qədər şanslarınız var. Atacağınız hər bir addımı dönə-dönə ölçüb-biçin.

ƏKİZLƏR - Sağlıq durumunuzu nəzarətdə saxlaya bilsəniz, gün ərzində heç bir probleminiz olmayacaq. Nahardan sonra doğmalarınız və sevdiyiniz adamlarla daha mehriban davranın.

XƏRÇƏNG - İşlərinizin çoxluğu fiziki cəhətdən yorğunluğunuza səbəb ola bilər. Lakin nəticənin uğurluluğunu nəzərə alıb usanmayın. Etibar etmədiyiniz adamların məsləhətlərinə əhəmiyyət verməyin.

ŞİR - Mənfi yüklü Ay bürcünüzdə olduğu üçün gün darıxdırıcı keçəcək, lakin hisslərinizi cilovlamağı bacarmalısınız. Çünki bu gün sizi böyük işlər gözləyir. Əsas vaxtınızı məhəbbətə həsr edin.

QIZ - Ümumi götürdükdə uğurlu təqvim hesab etmək olar. Əksəriyyətlə müqayisədə daha çox büdcə artımı sizdə gözlənilir. Bu da hazırkı problemlərin həllinə kömək edə bilər. Bu gün yeni təkliflər də mümkündür.

TƏRƏZİ - Ulduzlar boş-boşuna oturmağınızı məsləhət görmür. Ən azı ona görə ki, artıq bürcünüzün aktiv ərəfəsi başlayıb. Şəxsi büdcənizdə və sevgi münasibətlərinizdə uğurlar da gözlənilir.

ƏQRƏB - Yeni görüş və məsləhətləşmələrdə iştirakınız gözlənilir. Qarşınızı kəsən maneələr yavaş-yavaş səngiməyə başlayacaq. Yaşca sizdən böyük olan təcrübəli adamlardan yararlanın.

OXATAN - Yeni işgüzar əlaqələr qurmaq üçün Göy qübbəsi şanslarınızı artıracaq. Amma gərək təşəbbüskarlıq qarşı tərəfdən olsun. Bu gün şəxsi büdcənizdə müəyyən artımlar da mümkündür.

OĞLAQ - Kifayət qədər düşərli gündür. Ulduzlar gün ərzində nəzərdə tutduğunuz planların reallaşmasına təkan verəcək. Sadəcə, şəraitə uyğun addım atmalısınız. Günahlardan uzaq olmağa çalışın.

SUTÖKƏN - Qərarlarınızda qəti və ədalətli olsanız, heç bir xoşagəlməzliyin şahidi olmayacaqsınız. Çalışın ki, bahalı əşyalar, o cümlədən daşınmaz əmlak alqı-satqısında iştirak etməyəsiniz.

BALIQLAR - Ulduzlar sizə pul vəd edir. Bu səbəbdən əsas gücünüzü deyilən istiqamətə yönəldin. Fəaliyyət və məhəbbət istiqamətində sevindirici olaylar da baş verə bilər. Sirrinizi yalnız sirdaşa verin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Dalğıc meşə yanğınında ölüb

Kaliforniya Yanğınsöndürmə İdarəsi yanğından sonra meşədə yanmış bir dalğıc cəsədi tapıb. Üstəlik, bu cəsəd dalğıc paltarı, dalğıc üzgəci, dalğıc maskası və dalğıc balonu ilə "tam təchizatlı" bir dalğıc cəsədi idi. Əlbəttə ki, belə bir cəsədin meşə yanğınında tapılması çox təəccüblü idi. Ancaq polis hadisəni araşdırdıqdan sonra bütün sirlər ortaya çıxdı.

Əslində hadisə belə baş verib. Dalğıc o gün meşədən 20 km məsafə uzaq olan dənizə girmişdi. Meşədə yanğın baş verəndə yanğınsöndürən vertolyotları su götürmək üçün o dənizə getmişdilər. Və su çənlərini dənizə salaraq, oradan yanğını söndürmək üçün su çəkmişdilər. Bu vertolyotlardan biri körfəzdən su çəkərkən dalğıcı da su ilə birlikdə "çəkmişdi". Sonra da yanğın yerinə apararaq, orada (üstəlik neçə metr yüksəklikdən) yanğının içinə atmışdı. Nəticədə dalğıc yanaraq ölmüşdü.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.